*Gündəlik ictimai-siyasi qəzet*

# XALQ QƏZETİ

*№ 09 (28981) 13 yanvar 2019-cu il, bazar*

**Qəzet 1919-cu ildən nəşr edilir**
**www.xalqqazeti.com**

**TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ**



# Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurlu xarici siyasətimiz 2019-cu ildə də davam etdiriləcək

❐ ***Azərbaycan Respublikası Prezidenti Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev dövlətimizin başçısı İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası ilə bağlı kütləvi informasiya vasitələrinə müsahibə verib. AZƏRTAC müsahibəni təqdim edir.***

– Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirildi. İclasda dövlətimizin başçısı xarici siyasət məsələləri barədə ətraflı danışdı. Bununla bağlı nə deyərdiniz?

– Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında dövlətimizin başçısı proqram xarakterli nitqində beynəlxalq aləmdəki vəziyyət, xarici siyasətimizin gündəliyində olan məsələlər, ötən il əldə edilmiş nailiyyətlər və görülən işlər barədə əhatəli danışaraq xarici siyasət sahəsində qarşıda duran yeni vəzifələri müəyyən etdi. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən xarici və daxili siyasət biri digərini tamamlayır, Azərbaycanın siyasi və iqtisadi müstəqilliyini, xalqımızın firavanlığını, ölkəmizin təhlükəsizliyini və daha da güclənməsini təmin edir.

**İclasda 2018-ci ildə xarici siyasətimizin uğurlarını diqqətə çatdıran Prezident İlham Əliyev əsas istiqamətləri təsnif etdi:**

– Azərbaycanın xarici siyasəti çoxşaxəlidir və bizimlə əməkdaşlıq edən ölkələrin sayı gündən-günə artır. 2018-ci il ərzində dövlətimizin başçısının xarici ölkələrə 16 səfəri, Azərbaycana 16 dövlət və hökumət başçısının səfəri bunun əyani sübutudur;

– Azərbaycan qonşu dövlətlərlə əlaqələrini yüksək pilləyə qaldırıb. Ölkəmiz düşünülmüş siyasət apararaq bütün qonşularla çox gözəl münasibətlər qurub. Hər bir ölkə üçün qonşu dövlətlərlə əlaqələrin inkişaf etdirilməsi çox vacib amildir. Bu, ölkə ətrafında xoşməramlı mühitin formalaşmasına, nəqliyyat, enerji layihələrinin icrasına və ticarət əlaqələrimizin inkişafına xidmət edir. Keçən il qonşu ölkələrin dövlət və hökumət başçıları ilə Prezidentimizin çoxsaylı görüşləri olub, bu görüşlər nəticəyönümlü xarakter daşıyıb və praktiki məsələlər həllini tapıb.

– Azərbaycan müsəlman aləmində böyük hörmət və nüfuza malikdir, İslam həmrəyliyinin inkişafı istiqamətində ölkəmizin atdığı addımlar, İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində irəli sürdüyü təşəbbüslər İƏT-ə üzv dövlətlər tərəfindən yüksək qiymətləndirilir;

– Azərbaycanın Avropa İttifaqı ilə əlaqələrinin inkişafında keçən il Prezident İlham Əliyevin Brüsselə səfəri və səfər əsnasında Aİ ilə Azərbaycan arasında Tərəfdaşlıq Prioritetləri sənədinin imzalanması mühüm yer tutur. Bu sənəddə Avropa İttifaqı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli yolları ilə bağlı öz mövqeyini birmənalı şəkildə ortaya qoyur. Eyni zamanda, keçən il NATO-nun Zirvə görüşündə də qəbul edilmiş Yekun Bəyannamədə Azərbaycanın ərazi bütövlüyünə dəstək və hörmət əksini tapıb;

– Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiya imzalanıb. Ölkəmizin uzun müddət müəyyən etdiyi mövqe bu sənəddə öz əksini tapıb. Bu sənədin imzalanması bir daha göstərir ki, Xəzər dənizi sülh, əməkdaşlıq, təhlükəsizlik dənizidir;

– Keçən il Azərbaycan Qoşulmama Hərəkatının xarici işlər nazirlərinin toplantısına ev sahibliyi etdi. Bu il ölkəmizdə Qoşulmama Hərəkatının Zirvə toplantısı təşkil olunacaq. 2019-2022-ci illərdə Azərbaycan Qoşulmama Hərəkatına sədrliyi həyata keçirəcək;

– Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində Azərbaycanın mövqeyi dəyişməz olaraq qalır. Bu məsələ yalnız ölkəmizin ərazi bütövlüyü və suverenliyi çərçivəsində öz həllini tapmalıdır. BMT Təhlükəsizlik Şurasının qətnamələri icra edilməli, Ermənistan silahlı qüvvələri işğal edilmiş torpaqlardan tam və qeyd-şərtsiz çıxarılmalıdır;

– Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı olan məsələlər çox müsbət xarakter alır. Azərbaycanın ərazi bütövlüyünə, suverenliyinə, sərhədlərimizin toxunulmazlığına dəstək və hörmətin ifadə olunduğu mövqe daha da gücləndirilir və beynəlxalq sənədlərdə bu, öz təsbitini tapır;

– Danışıqların davam etdirilməsi prosesi başlanıb, baxmayaraq ki, ilkin mərhələdə Ermənistanın yeni rəhbərliyi danışıqlardan boyun qaçırmaq istəyirdi. Hətta belə fikirlər səslənirdi ki, Azərbaycan qondarma rejimlə danışıqlar aparmalıdır. Biz dərhal belə cəhdləri rədd etdik. Əlbəttə ki, münaqişənin həlli ilə məşğul olan vasitəçilər də belə anlaşılmaz yanaşmanı heç cür dəstəkləyə bilməzdilər və öz fikirlərini bildiriblər. Nəticə etibarilə, danışıqlar prosesi bərpa edildi;

– Ermənistanda iyirmi il hakimiyyəti qanunsuz şəkildə zəbt etmiş kriminal xunta rejimi süqut etdi. Bu, kriminal rejimin məntiqi acı sonu idi. Bu məsələdə əlbəttə ki, Ermənistanın işğalçılıq siyasəti də mühüm rol oynayır. Çünki məhz bu siyasətə görə Ermənistan biz tərəfdən bütün regional layihələrdən təcrid edildi. Bu işğalçılıq siyasətinə görə Ermənistan iqtisadiyyatı demək olar ki, çökdü. Ermənistan çox dərin demoqrafik böhran içindədir və depopulyasiya, yəni, əhalinin azalması prosesi geniş vüsət alıb. Azərbaycan dünyaya sübut etdi ki, onun apardığı siyasət düzgün siyasətdir. Ermənistan bütün layihələrdən təcrid edilib. Azərbaycan Ermənistanı təcrid etmək üçün bütün vasitələrdən istifadə edir və edəcək, o vaxta qədər ki, torpaqlarımız azad olunmayıb. Bu siyasət öz nəticəsini verdi, kriminal rejim çökdü və Ermənistanda yeni vəziyyət yarandı.

Müstəqil və uğurlu xarici siyasətimizin təməlində dövlətimizin başçısının müəyyən etdiyi uzaqgörən və düşünülmüş siyasət, verdiyi məntiqi əsaslı və hədəfli tapşırıq və təlimatlar, digər dövlət başçıları ilə keçirdiyi çoxsaylı və nəticəyönümlü görüşlər və səfərlər dayanır. Əminliklə deyə bilərik ki, 2019-cu ildə də Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurlu xarici siyasətimiz davam etdiriləcək.

***– Dövlətimizin başçısı Ermənistanın həyata keçirdiyi “konyak diplomatiyası”, Avropa Şurası, Avropa Parlamenti və demokratiyadan danışan bir sıra beynəlxalq təşkilatların Ermənistandakı saxtakarlığa göz yumması məsələlərinə də toxundu. Bu barədə nə deyərdiniz?***

*(ardı 2-ci səhifədə)*

# “Azərbaycan dünyaya sübut etdi ki, onun apardığı siyasət düzgün siyasətdir”

❐ ***Azərbaycan ötən il ərzində mövcud makroiqtisadi sabitlik, güclü iqtisadi potensial, ölkənin qlobal çağırışlara hazır olması, iqtisadiyyatın diversifikasiyası, sistemli islahatlar, biznes və investisiya mühitinin yaxşılaşdırılması, sahibkarlığın inkişafı sayəsində iqtisadiyyatın bütün istiqamətlərində ciddi uğurlara imza atıb.***

Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında bu barədə ətraflı danışılıb, qarşıda duran vəzifələr müəyyənləşdirilib. Prezident İlham Əliyev giriş nitqində bildirib ki, 2018-ci il ölkəmiz üçün uğurlu olub. Dünyada və bölgədə gedən proseslərə baxmayaraq, Azərbaycan sürətlə inkişaf edib. Keçən ilin əvvəlində qarşıya qoyulan bütün vəzifələr yerinə yetirilib, ölkəmizin hərtərəfli dinamik inkişafı təmin olunub.

Prezident nitqində dünyada davam edən münaqişələr, qanlı toqquşmalar, kütləvi etiraz aksiyaları fonunda respublikamızın uğurlarının özünü daha qabarıq şəkildə büruzə verdiyini, Azərbaycanın inkişaf, tərəqqi, sabitlik ölkəsi olduğunu, öz müstəqil, inkişaf yolu ilə uğurla getdiyini diqqətə çatdırıb. Eyni zamanda, regionların üçüncü sosial-iqtisadi inkişafı Dövlət Proqramının uğurla başa çatdığını, bölgələrdə infrastruktur layihələrinin icrasının daha sürətlə həyata keçirildiyini, yüz minlərlə yeni iş yerləri, sənaye müəssisələri yaradıldığını, kənd təsərrüfatında müsbət nəticələrin qeydə alındığını vurğulayıb: “Keçən il mən Azərbaycanın bölgələrinə 24 səfər etmişəm. Bu səfərlər zamanı həm işlərə nəzarət etmək üçün imkan yaranır, həm də yerlərdə vətəndaşlarla görüşərək onları narahat edən problemlərin həlli istiqamətində əlavə göstərişlər verilir. Rayonların sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılması, o cümlədən infrastruktur layihələri ilə bağlı bir çox sərəncamlar imzalanmışdır. Bu sərəncamlar bölgələrimizdə çox böyük əks-səda verir və böyük nəticələrə gətirib çıxarır. Dediyim kimi, bölgələrə səfərlərim həm vətəndaşlarla təmasda olmaq, həm görülən işlərə nəzarət etmək, həm də gələcəkdə görüləcək işlərlə bağlı düzgün addımların atılması üçün gözəl imkan yaradır. Mən Azərbaycanın hər bir rayonunda dəfələrlə olmuşam, ən azı hər bir rayonda 5 dəfə, elə rayon var ki, 10 dəfədən çox olmuşam və bu müntəzəm səfərlərin çox böyük əhəmiyyəti var”.

Prezident İlham Əliyev giriş nitqində hərbi potensialımıza böyük diqqət göstərildiyini, bu sahədə mühüm nailiyyətlər əldə edildiyini, ordumuzun döyüş qabiliyyətinin daha da artırıldığını və bütün bunların əyani sübutu kimi uğurlu Naxçıvan əməliyyatı nəticəsində 11 min hektar ərazinin tam nəzarət altına alındığını xatırladıb. Dövlətimizin başçısı, eyni zamanda, göstərib ki, müharibədən əziyyət çəkən soydaşlarımızın problemləri keçən il uğurla həll olunub. Bu məsələ ilə bağlı çox ciddi addımlar atılıb, 2018-ci ildə 5800-dən çox köçkün ailəsinə yeni evlər, mənzillər verilib. Bununla bərabər, şəhid ailələrinə, Qarabağ müharibəsi əlillərinə 620-dən çox mənzil paylanılıb. Bu il isə daha çox mənzil verilməsi, o cümlədən, məcburi köçkünlər üçün yeni şəhərciklər salınması nəzərdə tutulub.

*(ardı 3-cü səhifədə)*

## Dövlət Dumasının sədri: AŞPA-da bütöv bir ölkəni və onun vətəndaşlarını təmsil edən milli nümayəndə heyətini nə üçün cəzalandırırlar?



❐ **“Avropa Şurası Parlament Assambleyasında (AŞPA) yaranmış vəziyyəti tənqid edən təkcə Rusiya deyil. Onu Türkiyə də, Azərbaycan da tənqid edir. Biz bu məsələni həmkarlarımızla müzakirə edəndə eşidirik və görürük ki, onlar da heyrətlənirlər: nə üçün belə olur? AŞPA-da bütöv bir ölkəni və onun vətəndaşlarını təmsil edən milli nümayəndə heyətini nə üçün cəzalandırırlar?”**

RF Dövlət Dumasının sədri Vyaçeslav Volodin “İnterfaks” agentliyinə müsahibəsində Rusiyanın AŞPA-ya qayıtması məsələsini şərh edərkən belə deyib.

Xatırladaq ki, Avropa Şurası PA-nın baş katibi Voytsex Savitski RF Dövlət Dumasına məktubla müraciət edərək assambleyanın yanvarın 21-də Strasburqda işə başlayacaq qış sessiyasına RF-dən nümayəndə heyəti göndərilməsini təklif edir.

Dövlət Dumasının vitse-spikeri Pyotr Tolstoy və Federasiya Şurasının beynəlxalq məsələlər komitəsinin rəhbəri Konstantin Kosaçev yanvarın 14-də Cenevrədə AŞPA-nın rəhbəri Lilian Mori Paskye ilə bu barədə məsləhətləşmələr aparacaqlar.

V.Volodin qeyd edib ki, Rusiyada AŞPA-ya böyük əhəmiyyət verilir. Dövlət Dumasının spikeri vurğulayıb: “Başqa ölkələrdə bu quruma o dərəcədə əhəmiyyət vermirlər. Ona görə ki, Avropa Şurasının üzvlərinin əksəriyyəti, eyni zamanda, Avropa İttifaqında və Avropa Parlamentində də iştirak edirlər, Avropa Parlamentinə deputatlar seçirlər. Buna görə də onların nəzərində Avropa Parlamenti birinci, AŞPA isə ikinci dərəcəlidir. Bu səbəbdən ona belə münasibət yaranıb. Bunu da başa düşmək lazımdır”.

RF Parlamenti sədrinin sözlərinə görə, Rusiya AŞPA-nın mövqeyini aydınlaşdırandan sonra bu beynəlxalq təşkilatla gələcək əməkdaşlıq barədə qərar qəbul edəcək.

***Fəridə ABDULLAYEVA,***
***AZƏRTAC-ın xüsusi müxbiri***

**Moskva**



**Ötən il həyata keçirilən islahatlar iqtisadi hədəflərə nail olmağa imkan yaradıb**

**3**



**Akademik: 2019-cu ilin “Nəsimi ili” elan edilməsi nəsimişünaslığın inkişafına böyük təkan verəcək**

**4**



**Yaxın Şərqdə yeni strateji oyunlar: Con Boltonun Türkiyə səfərindən sonrakı qeyri-müəyyənlik**

**6**



**Dünya Bankının prezidenti kim olacaq?**

**8**

# Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurlu xarici siyasətimiz 2019-cu ildə də davam etdiriləcək

*(əvvəli 1-ci səhifədə)*

– Dövlətimizin başçısı tərəfindən qeyd olunduğu kimi, Ermənistan tərəfindən açıq şəkildə "konyak diplomatiyası" həyata keçirilir. Bu yolla Avropa Parlamenti və Avropa Şurası Parlament Assambleyası, həmçinin bəzi Qərb ölkələrinin qanunverici orqanlarındakı korrupsioner siyasətçilər ələ alınır və həmin şəxslər tərəfindən də Azərbaycana qarşı iyrənc şəkildə şər-böhtan və saxta məlumatlar əsasında təxribat həyata keçirilir. Məsələn bir nümunəni qeyd edək. Kriminal rejim tərəfindən 2017-ci ildə Ermənistanda keçirilmiş parlament seçkilərini müşahidə edən sözügedən təsisatların müşahidəçiləri yekun hesabatlarında seçkilərdə fundamental azadlıqların təmin olunduğunu iddia edirdilər. Həmin seçkilərdə kriminal xunta rejiminin nümayəndələri 50 faizdən çox səs almışdılar, son parlament seçkilərində isə 5 faiz səs belə yığa bilmədilər. Ermənistan xalqı sonradan həmin kriminal xunta rejimini siyasi səhnədən biabırçı şəkildə rədd etdi. Mənzərə tam aydın olur ki, sözügedən təsisatlarda təmsil olunan bir çox siyasətçilər Ermənistanın kriminal rejimi ilə müəyyən maddi maraqların, yəni, "konyak diplomatiyası"nın müqabilində şərik olaraq seçkilərin saxtalaşdırılmasında iştirak edir, sonra saxta hesablarla ona "demokratik" don geyindirirlər. İndi hansı əsasla həmin şəxslər demokratik dəyərlərdən danışırlar? Kriminal xunta rejiminə bu kimi hesabatlarla legitimlik verən həmin siyasətçilərin bir qismi hələ də sözügedən təsisatlarda təmsil olunmaqda davam edirlər. Brüsseldə Serj Sarkisyanla bir masa ətrafında oturub siyasi xarakterli kriminal əməlləri müzakirə edən, kriminal xunta rejiminin seçkilərini dəstəkləyən, işğal olunmuş ərazilərimizə qanunsuz səfərlər edən Avropa Parlamentinin üzvləri Yaroslav Stetina və Frank Engel kimi siyasətçilər indi hansı mənəviyyatdan danışa bilərlər? Ermənistanın "konyak diplomatiyası"nın maliyyə mənbəyini isə kriminal pullar təşkil edir. Burada kriminal fəaliyyətlə siyasi lobbizm bir-birini tamamlayacaq şəkildə inkişaf edir.

Bu gün Avropa ölkələrində, o cümlədən Almaniya, İspaniya, Çexiya və Belçikada "erməni mafiyası" adı altında geniş mütəşəkkil cinayətkar qruplaşmalar aşkar edilib. Bu mütəşəkkil cinayətkar qruplaşmalar yalnız kriminal fəaliyyətlə deyil, eyni zamanda, siyasi lobbizmlə də məşğul olublar. Həmin kriminal qruplaşmaların bəzi üzvləri Ermənistan Xarici İşlər Nazirliyi tərəfindən verilən diplomatik pasportlarla həbs olunublar. Erməni mafiyası ilə əlaqədar aparılan cinayət işində Azərbaycana qarşı kampaniya həyata keçirən, işğal olunmuş ərazilərimizə qanunsuz səfər edən bir sıra siyasətçilərin adları hallanmaqdadır. Eyni zamanda, bu proseslərdə Ermənistanın bir sıra səfirlərinin də adı keçir.

Hesab edirik ki, Avropa Şurası Parlament Assambleyası və Avropa Parlamentinin, həmçinin bir sıra Qərb ölkələrinin parlamentlərinin etik komitələri parlament üzvlərinin və siyasətçilərin bu kimi qanunsuz və korrupsiyalaşmış fəaliyyətlərini ifşa edən araşdırmalar aparmalıdırlar. Həmçinin bu çərçivədə antiazərbaycan kampaniyaların kökləri araşdırılmalıdır. Əks təqdirdə, hər hansı ədalətdən və ya demokratik dəyərlərdən danışmaq qeyri-mümkündür.

## Prezident Administrasiyasının rəsmisi:

# Ermənistan "fait accompli" yanaşmasını tətbiq etməyə və işğalı möhkəmləndirməyə çalışır




***❐ İşğala əsaslanan status-kvo qəbuledilməzdir. Ermənistan "fait accompli" yanaşmasını tətbiq etməyə və işğalı möhkəmləndirməyə çalışır.***

Bu sözləri Azərbaycan Respublikası Prezidenti Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev "TRT World" televiziyasına müsahibəsində deyib.

Şöbə müdiri münaqişənin fundamental əsasını Ermənistanın gücdən istifadə edərək Azərbaycana qarşı törətdiyi işğalçılıq siyasəti təşkil etdiyini vurğulayıb, işğal olunmuş ərazilərdə Ermənistan tərəfindən azərbaycanlılara qarşı qanlı etnik təmizləmə törədildiyini, milyondan çox azərbaycanlının hələ də qaçqın və məcburi köçkün şəraitində yaşamaq məcburiyyətində qaldığını deyib. O əlavə edib ki, münaqişənin həllində irəliləyiş əldə etmək üçün, ilk növbədə, işğal faktı aradan qaldırılmalı və Ermənistan qoşunları Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılmalıdır. Münaqişənin həllinin əsasının BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələri, Helsinki Yekun Aktı və digər sənədlərdə təsbit olunduğunu deyən H.Hacıyev Ermənistan qoşunlarının işğal olunmuş ərazilərdən çıxarılmasından sonra münaqişənin siyasi həlli üçün imkanların yarana biləcəyini diqqətə çatdırıb.

Düşənbə Zirvə toplantısına toxunan şöbə müdiri Prezident İlham Əliyev ilə Ermənistanın baş naziri Nikol Paşinyan arasında söhbətin olduğunu xatırladaraq, Azərbaycan Respublikasının öz konstruktiv mövqeyini bir daha nümayiş etdirdiyini bildirib. Əlavə edib ki, Azərbaycan münaqişənin həllində ən maraqlı tərəfdir. Belə ki, Azərbaycan 26 ildən çoxdur işğaldan əziyyət çəkir. Prezident Administrasiyasının rəsmisi hazırda münaqişənin həlli üçün əlverişli imkanların olduğuna diqqəti çəkərək Ermənistanın hökumət formalaşdıqdan sonra problemin həlli istiqamətində addımlar atmalı olduğunu qeyd edib.

Aparıcının "Etnik barışıq mümkündürmü" sualına cavab verən şöbə müdiri bildirib ki, Azərbaycan özünün multikultural dəyərləri və tolerantlıq mədəniyyəti ilə fəxr edir. Münaqişənin həlli prosesi çərçivəsində etnik barışıq çətin və vaxt tələb edən məsələ olsa da, bu, mümkündür. Bunun üçün, ilk növbədə, Ermənistan qoşunları işğal edilmiş ərazilərdən çıxarılmalı, azərbaycanlı məcburi köçkünlərin öz doğma torpaqlarına qayıtması təmin olunmalıdır. Bu əsnada etimad quruculuğu tədbirləri həyata keçirilə, hərtərəfli regional əməkdaşlıq bərpa oluna və etnik barışıq təmin edilə bilər.

Hikmət Hacıyev hazırda Ermənistanın təcrid vəziyyətində olduğunu, nəqliyyat imkanlarına çıxışı olmadığını deyərək, münaqişənin həlli nəticəsində Ermənistanın regional əməkdaşlıq imkanlarından faydalana biləcəyini deyib. Eyni zamanda, o, Ermənistanın işğalçılıq siyasətindən əl çəkməli, qonşu dövlətlərə münasibətdə beynəlxalq hüquqa əsaslanan siyasət yürütməli və Ermənistan hakimiyyətinin öz xalqını qonşu dövlətlərlə sülhə hazırlamalı olduğunu diqqətə çatdırıb.

***AZƏRTAC***

# Vyetnam Xarici İşlər Nazirliyində "Azərbaycanla tanışlıq-2019" tədbiri keçirilib

***❐ Azərbaycanın Hanoydakı səfirliyi və Vyetnam Xarici İşlər Nazirliyinin birgə təşkilatçılığı ilə "Azərbaycan ilə tanışlıq-2019" adlı tədbir keçirilib.***



Səfirlikdən bildiriblər ki, Vyetnam Xarici İşlər Nazirliyinin binasında keçirilən tədbirin məqsədi bu ölkənin bölgələrinin nümayəndələrinin Azərbaycan haqqında məlumatlandırılması, ölkələrimizin regionları arasında birbaşa əlaqələrin qurulması imkanlarının müzakirəsi, habelə Vyetnam biznesinin Azərbaycana cəlb edilməsinin təşviqi olub.

Vyetnamın iyirmiyə yaxın əyalətinin rəhbərləri və müxtəlif təşkilatlarının nümayəndələrinin iştirak etdikləri tədbirdə ölkəmizin Hanoydakı səfiri Anar İmanov son illər inkişaf edən Azərbaycan-Vyetnam dostluq münasibətlərinin təməlinin Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev və Vyetnamın sabiq Prezidenti Xoşimin tərəfindən qoyulduğunu diqqətə çatdırıb. Bildirib ki, Azərbaycan Prezidenti İlham Əliyevin Vyetnama dövlət səfəri zəngin keçmişə əsaslanan münasibətlərimizin tarixində yeni parlaq səhifə açıb.

Səfir müasir Azərbaycan dövlətinin banisi Heydər Əliyev və onun layiqli davamçısı Prezident İlham Əliyevin siyasi fəaliyyətindən bəhs edərək, ölkəmizin bugünkü sürətli inkişafının məhz bu dövlət xadimlərinin adı ilə bağlı olduğunu vurğulayıb.

Diplomat Azərbaycanın hər iki ölkənin bölgələri arasında münasibətlərin bütün spektri üzrə, o cümlədən turizm, nəqliyyat infrastrukturu və kənd təsərrüfatı sahələrində qarşılıqlı faydalı əməkdaşlığın qurulmasında maraqlı olduğunu bildirib. O, Azərbaycanın diplomatik xidmət orqanlarının 100 illik yubileyinin qeyd olunduğu 2019-cu ildə hər iki tərəfin səyləri sayəsində sözügedən istiqamətlərdə ciddi irəliləyişlərin əldə olunacağına ümid bəslədiyini qeyd edib.

Vyetnam Xarici İşlər Nazirliyinin əyalətlər ilə iş idarəsinin baş direktoru Nquyen Hoanq Lonq dərin köklərə əsaslanan münasibətlərimizin sürətlə inkişaf etdiyini vurğulayıb. O, mürəkkəb dövrlərdə Azərbaycanın Vyetnama göstərdiyi yardımı yüksək qiymətləndirərək, bu köməyin xalqının yaddaşından heç zaman silinməyəcəyini deyib.

Vyetnam XİN-in rəsmisi ölkəsinin Azərbaycan ilə bütün istiqamətlər üzrə, o cümlədən bölgələrarası əməkdaşlığı genişləndirmək əzmində olduğunu bildirib. Nquyen Hoanq Lonq Azərbaycanın son illər ərzində sürətli inkişafının şahidi olduqlarını, bundan böyük sevinc hissi keçirdiklərini bildirərək, Vyetnam tərəfinin Azərbaycanın müxtəlif sahələrdəki geniş imkanları və zəngin təcrübəsindən faydalanmaq niyyətində olduğunu diqqətə çatdırıb.

Baş direktor bu cür tədbirlərin Vyetnam-Azərbaycan münasibətlərinin bütün istiqamətləri üzrə, o cümlədən, turizm, nəqliyyat infrastrukturu və kənd təsərrüfatı sahələrində genişləndirilməsini və xalqlar arasındakı əlaqələrin möhkəmləndirilməsini təşviq edəcəyinə əminliyini bildirib.

Sonra yuxarıda qeyd olunan istiqamətlər üzrə panel iclasları təşkil edilib. Vyetnam əyalətlərinin rəsmiləri və həmin vilayətlərdə fəaliyyət göstərən şirkətlərin nümayəndələri Azərbaycan ilə əməkdaşlıqda çox maraqlı olduqlarını bildirərək, ölkələrimiz arasında logistika, infrastruktur və beynəlxalq daşımalar, turist səyahətlərinin həcminin artırılması və turizm infrastrukturunun inkişafı, habelə kənd təsərrüfatı mallarının yetişdirilməsi, qablaşdırılması və satışı üzrə əməkdaşlığın təşviqi istiqamətində atılması zəruri olan addımlar barədə fikirlərini bölüşüblər.

Tədbir çərçivəsində əməkdaşlığın perspektivləri ətrafında geniş fikir mübadiləsi aparılıb, ölkəmizin müxtəlif sahələrinin inkişafını əks etdirən sənədli filmlər nümayiş etdirilib, müxtəlif istiqamətlər üzrə təqdimatlar keçirilib.

Tədbir iştirakçıları 2019-cu ildə ölkəmizdə keçirilməsi planlaşdırılan 18-ci Azərbaycan Beynəlxalq Turizm və Səyahətlər və 13-cü Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı sərgilərinə qatılmağa dəvət olunublar. Həmçinin iştirakçılara səfirlik tərəfindən Vyetnam dilində dərc olunmuş müxtəlif nəşrlər, o cümlədən Elmira Axundovanın müəllifi olduğu "İlham Əliyev. Prezidentin portreti dəyişikliklər fonunda" adlı kitab təqdim olunub.

***AZƏRTAC***

## AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

**№ 573** **Bakı şəhəri, 29 dekabr 2018-ci il**

**"İctimai Sektor üçün Mühasibat Uçotunun Beynəlxalq Standartlarının ümumi prinsiplərinə əsasən qeyri-hökumət təşkilatları tərəfindən mühasibat uçotunun aparılması Qaydaları"nın təsdiq edilməsi haqqında**

"Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 4 may tarixli 1140-VQD nömrəli Qanununun tətbiqi və "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 7 fevral tarixli 192 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 1 iyun tarixli 105 nömrəli Fərmanının 1.6.1-ci yarımbəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **QƏRARA ALIR:**

"İctimai Sektor üçün Mühasibat Uçotunun Beynəlxalq Standartlarının ümumi prinsiplərinə əsasən qeyri-hökumət təşkilatları tərəfindən mühasibat uçotunun aparılması Qaydaları" təsdiq edilsin (əlavə olunur).

***Novruz MƏMMƏDOV***
***Azərbaycan Respublikasının Baş naziri***

***Qeyd: Qərara edilmiş əlavələrin tam mətni ilə www.cabmin.gov.az və www.xalqqazeti.com saytlarında tanış ola bilərsiniz.***

## AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

**№ 3** **Bakı şəhəri, 10 yanvar 2019-cu il**

**"Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 6 dekabr tarixli 193 nömrəli Qərarında dəyişikliklər edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin təklifini nəzərə alaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti **QƏRARA ALIR:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 6 dekabr tarixli 193 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 12, maddə 1242; 2012, № 3, maddə 260; 2013, № 3, maddə 346; 2016, № 1, maddə 181) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

**1.** "I. Büdcədən maliyyələşdirilən qurumlar" bölməsinə aşağıdakı məzmunda 21-32-ci hissələr əlavə edilsin:

"21. "Suraxanı Gənclər evi" sosial xidmət müəssisəsi;

22. "Xəzər Gənclər evi" sosial xidmət müəssisəsi;

23. "Sabunçu Gənclər evi" sosial xidmət müəssisəsi;

24. "Qaradağ Gənclər evi" sosial xidmət müəssisəsi;

25. "Binəqədi Gənclər evi" sosial xidmət müəssisəsi;

26. "Tovuz Gənclər evi" sosial xidmət müəssisəsi;

27. "Gəncə Gənclər evi" sosial xidmət müəssisəsi;

28. "Şirvan Gənclər evi" sosial xidmət müəssisəsi;

29. "Sumqayıt Gənclər evi" sosial xidmət müəssisəsi;

30. "Mingəçevir Gənclər evi" sosial xidmət müəssisəsi;

31. "Saatlı Gənclər evi" sosial xidmət müəssisəsi;

32. "Balakən Gənclər evi" sosial xidmət müəssisəsi.".

**2.** "II. Təsərrüfathesablı qurumlar" bölməsi üzrə:

2.1. 8-ci hissəyə "təlim-məşq mərkəzi" sözlərindən sonra "MMC" abreviaturası əlavə edilsin;

2.2. 50-ci hissənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 51-58-ci hissələr əlavə edilsin:

"51. "Qazax Olimpiya İdman Kompleksi" MMC;

52. "Zaqatala Olimpiya İdman Kompleksi" MMC;

53. "Şəki Olimpiya İdman Kompleksi" MMC;

54. "Qusar Olimpiya İdman Kompleksi" MMC;

55. "Abşeron Olimpiya İdman Kompleksi" MMC;

56. "Ağcabədi Olimpiya İdman Kompleksi" MMC;

57. "Buzovna İdman Zalı" MMC;

58. "Bakı İdman Sarayı" MMC.".

***Novruz MƏMMƏDOV***
***Azərbaycan Respublikasının Baş naziri***

# "Anadolu" agentliyi: 2018-ci il Azərbaycan üçün uğurlu olub

***❐ Türkiyənin nüfuzlu "Anadolu" agentliyi Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası barədə məlumat yayımlayıb.***

Məlumatda qeyd olunur ki, Azərbaycan son illər Prezident İlham Əliyevin müdrik liderliyi ilə bütün sahələrdə davamlı uğurlar əldə edir. Dövlət başçısı iclasda vurğulayıb ki, Azərbaycan 2018-ci ildə xarici siyasət sahəsində bir sıra nəzərəçarpan uğurlar qazanıb. Belə ki, rəsmi Bakı ilə sıx əməkdaşlıq etmək istəyən ölkələrin sayı artıb. Azərbaycan hazırda işğalçı Ermənistan istisna olmaqla, bütün qonşu dövlətlərlə qarşılıqlı inam və etimada əsalanan siyasi, iqtisadi və mədəni əlaqələr qurub.

Agentliyin müxbiri qeyd edir ki, Prezident İlham Əliyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə danışarkən bir daha vurğulayıb ki, Azərbaycan xalqı və dövləti heç vaxt işğal faktı ilə barışa bilməz.

Dövlət başçısı ötənilki uğurlar barədə söz açarkən deyib ki, 2018-ci ildə Azərbaycanın üçüncü peyki kosmosa buraxılıb, Transanadolu (TANAP) layihəsi istifadəyə verilib. Ələt qəsəbəsində Bakı Beynəlxalq Dəniz Ticarət Limanının açılışı olub və.s.

ANADOLU AGENCY

Dövlət başçısının sözlərinə görə, ötən il ölkədə qeyri-neft sektoru 1,8 faiz, sənaye istehsalı 1,5 faiz yüksəlib. Kənd təsərrüfatında isə artım 4,6 faiz təşkil edib. Agentlik belə bir faktı da diqqətə çatdırır ki, hazırda Azərbaycanın valyuta ehtiyatları 45 milyard ABŞ dolları təşkil edir.

***Hazırladı:***
***M.HACIXANLI,***
***"Xalq qəzeti"***

# Yalan ayaq tutar, amma yeriməz!

***❐ Azərbaycan müxalifətinin cəmiyyət arasında öz nüfuzunu itirdiyi bəllidir. Bu da təsadüfi deyil. Çünki ölkə iqtidarının ardıcıl həyata keçirdiyi islahatlar elə bir sosial-iqtisadi inkişafa gətirib çıxarmışdır ki, müxalifət hələ 100 il bundan sonra da bu iqtisadi tempi təmin edə bilməyəcək. Ona görə də gücü yalnız hakimiyyətə qara yaxmağa, böhtan kampaniyası aparmağa, mütəmadi olaraq çirkin vasitələrdən istifadə etməyə çatır.***



Artıq bu məqsədlərini həyata keçirmək üçün yeni bir çirkin kampaniyaya başlayıblar – Mehman Hüseynovla bağlı. Guya Mehman Hüseynov aclıq elan edib, ona qarşı ədalətsiz davranılır. Amma bu da növbəti yalandan, böhtandan başqa bir şey deyil. Çünki Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin yaydığı məlumatda bildirilir ki, Mehman Hüseynov heç bir aclıq aksiyası keçirmir və üstəlik, səhhəti də normaldır. O, cəza çəkdiyi həbsxanada normal qidalanır, lazım gəldikcə vəkili ilə görüşür, mütəmadi olaraq ailə üzvləri ilə telefonla danışır və s.

Bundan əlavə, radikallar Mehman Hüseynovu jurnalist kimi qələmə verməyə çalışırlar. Ancaq məlumdur ki, o, faktiki olaraq jurnalist deyil, onu mediaya bağlayan yeganə səbəb qardaşı Emin Hüseynovun Reportyorların Azadlığı və Təhlükəsizliyi İnstitutu adlı qurum yaratmasıdır. Hazırda qardaşı gizli yolla Azərbaycanı tərk edərək başqa ölkəyə qaçıb. İndi də Mehmanın mühacir kimi xaricə çıxışını təmin etmək istəyirlər. Məhz bu məqsədilə onun guya "bloger" olması və hakimiyyəti tənqid etdiyinə görə təzyiqlərlə üzləşməsi barədə rəy formalaşdırmağa cəhd göstərilir.

Bütün bunları Azərbaycan ictimaiyyəti yaxşı başa düşür. Ona görə də inanırıq ki, Mehman Hüseynovla bağlı yalan ayaq tutsa da, yeriyə bilməyəcək.

***Ələşrəf NİFTİYEV,***
***Azərbaycan Yazıçılar və Jurnalistlər birliklərinin üzvü***

# "Azərbaycan dünyaya sübut etdi ki, onun apardığı siyasət düzgün siyasətdir"

(əvvəli 1-ci səhifədə)

Ölkə rəhbəri deyib ki, bütün bu işləri görmək üçün iqtisadi güc olmalıdır və biz bunu yaradırıq: "Bu gün Azərbaycan iqtisadi inkişaf baxımından heç kimdən, heç bir beynəlxalq maliyyə qurumundan, heç bir ölkədən asılı deyil. İqtisadi müstəqillik bizə imkan verir ki, müstəqil siyasət aparaq, Azərbaycan xalqının maraqlarını müdafiə edək. Keçən il iqtisadi inkişaf baxımından uğurlu il olmuşdur. Deyə bilərəm ki, keçən il dərin iqtisadi islahatlar ili olmuşdur və bu islahatların nəticələrini indi hər kəs görür. Büdcəmizə daxilolmalar böyük dərəcədə artıb. İqtisadi islahatların əsas məqsədi bu sahədə şəffaflığı tam təmin etməkdir, xoşagəlməz hallara qarşı mübarizəni gücləndirməkdir və beləliklə, ölkəmizin uğurlu inkişafını sürətləndirməkdir. Deyə bilərəm ki, beynəlxalq təşkilatlar, aparıcı maliyyə qurumları Azərbaycanda gedən prosesləri çox böyük maraqla izləyirlər və bizim işimizə çox yüksək qiymət verirlər. Mən xüsusi qeyd etməliyəm ki, Dünya Bankının "Doing Business" hesabatında Azərbaycan dünya miqyasında 25-ci yerdədir. İl ərzində biz 32 pillə irəliyə getmişik. Hesab edirəm ki, bu, rekord göstəricidir. Biznesi aparmaq üçün yaradılan şəraitə görə dünya miqyasında 25-ci yerdə olmaq böyük nailiyyətdir".







Nazirlər Kabinetinin iclasında keçən il əldə edilən uğurlu iqtisadi göstəricilər də diqqətə çatdırılıb. Ümumi daxili məhsulun 1,4 faiz olması, qeyri-neft sektorunun inkişafının 1,8 faiz həddinə çatması, sənaye istehsalının 1,5 faiz, qeyri-neft sektorunda sənaye istehsalının 9,1 faiz artması xatırladılıb.

Hesabat dövründə inflyasiya cəmi 2,3 faiz təşkil edib, əhalinin pul gəlirləri isə 9,2 faiz artıb. Manatın məzənnəsinin sabitliyi qorunub. Kənd təsərrüfatında 4,6 faiz artım qeydə alınıb. Ölkə iqtisadiyyatına 17,2 milyard manat sərmayə qoyulub, bunun 11 milyard manatı qeyri-neft sektoruna yatırılıb, 118 min daimi iş yeri yaradılıb.

Keçən il valyuta ehtiyatları 3 milyard dollar məbləğində artırılıb. Hazırda Azərbaycanın valyuta ehtiyatları 45 milyard dollara bərabərdir. Xarici borc 22,8 faizdən 19 faizə düşüb və bu, çox müsbət haldır. Yəni, indi Azərbaycanın xarici borcu ümumi daxili məhsulun 19 faizini təşkil edir. Bu borcun yaxın illərdə daha da azaldılması məqsədilə müvafiq proqram hazırlanıb.

Hesabat dövründə bir sıra tarixi layihələr reallaşdırılıb, o cümlədən, nəhəng transmilli Cənub Qaz Dəhlizi layihəsi çərçivəsində "Şahdəniz-2" və TANAP layihələri uğurla həyata keçirilib, "Azərspace-2" peyki orbitə buraxılıb, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksi, Sumqayıtda polipropilen zavodu, Azərbaycanın dövlət investisiyası ilə Türkiyədə böyük neft emalı zavodu istismara verilib.




Nazirlər Kabinetinin iclasında qeyd edilib ki, ötən il ölkə iqtisadiyyatının dinamik inkişafı dövlət və icmal büdcələrinin icrasına öz müsbət təsirini göstərib. Operativ məlumatlara əsasən, 2018-ci ilin icmal büdcəsinin gəlirləri 31 milyard 35 milyon manat, xərcləri 26 milyard 334 milyon manat icra olunub. İcmal büdcədə 4 milyard 700 milyon manat büdcə artıqlığı və ya ümumi daxili məhsula nisbətdə 5,9 faizlik profisit əldə edilib. 2017-ci illə müqayisədə gəlirlər müvafiq olaraq 6 milyard 750 milyon manat və ya 28,9 faiz, xərclər isə 1 milyard 151 milyon manat və ya 4,6 faiz çox icra olunub.




Qeyri-neft sektoru üzrə büdcə daxilolmalarının artımla icra edilməsi xüsusilə qeyd olunmalıdır. Bu daxilolmalar 9 milyard 10 milyon manat və yaxud 102,4 faiz icra edilməklə proqnozda nəzərdə tutulduğundan 207 milyon manat, 2017-ci illə müqayisədə isə 378 milyon manat və ya 4,4 faiz çox təşkil edib.

Ötən il Vergilər Nazirliyinin xətti ilə daxilolmalar 7 milyard 418 milyon manat və yaxud 100,5 faiz, 2017-ci ilə nisbətən 444 milyon manat və ya 6,4 faiz çox icra edilib.

Dövlət Gömrük Komitəsi xətti ilə dövlət büdcəsinə 3 milyard 434 milyon manat və ya proqnoza nisbətən 244 milyon manat çox vəsait daxil olub. Bu 2017-ci illə müqayisədə 825 milyon manat və ya 31,6 faiz çoxdur.

Dövlət əmlakının özəlləşdirilməsi üzrə proqnoz isə 1,2 faiz artımla yerinə yetirilərək büdcəyə 101,2 milyon manat vəsait təmin edilib.

Azərbaycan əhalisinin rifah halının yüksəlməsinə xidmət edən sosial siyasət 2003-cü ildən Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən dövrün tələblərinə adekvat şəkildə, həm forma, həm də məzmun etibarilə zənginləşdirilərək yeni keyfiyyət mərhələsinə daxil olub və daha da güclənib. Bu gün ölkəmizdə yoxsulluğun azaldılması, regional inkişafın təmin edilməsi istiqamətində qəbul olunan çoxsaylı dövlət proqramları, aparılan iqtisadi islahatlar nəticəsində ötən illərlə müqayisədə son 15 ildə əhalinin maddi rifah halının və yaşayış, eləcə də məşğulluq səviyyəsinin əhəmiyyətli dərəcədə yüksəldilməsi özünü göstərir.



Nazirlər Kabinetinin iclasında bu barədə də ətraflı danışılıb. Bildirilib ki, Azərbaycan Prezidentinin sərəncamlarına əsasən ötən ilin mart ayından əhalinin sosial müdafiəsinin gücləndirilməsi məqsədilə ölkədə sosial müavinətlərin, təqaüdlərin və digər sosial ödənişlərin orta hesabla 10 faiz artırılması təmin olunub, dövlət büdcəsindən maliyyələşən təşkilatlarda çalışan işçilərin əməkhaqları 10 faiz artırılıb. Bu tədbirlərin maliyyələşdirilməsi üçün dövlət büdcəsində əlavə olaraq 446 milyon manat təminat yaradılıb.

Sosialyönlü siyasətin digər vacib istiqamətləri kimi qaçqın və məcburi köçkünlərin sosial müdafiəsinin gücləndirilməsi və yaşayış şəraitinin yaxşılaşdırılması üçün 2018-ci ilin icmal və dövlət büdcələrindən üst-üstə 436 milyon manat, sosial mənzillərin tikintisi və güzəştli ipoteka proqramının davamı üçün müvafiq olaraq 100 və 50 milyon manat vəsait ayrılıb.

Eyni zamanda, Qarabağ müharibəsi əlilləri və şəhid ailələri 626 mənzillə təmin edilib, ordumuzda uzun müddət qüsursuz xidmət etmiş hərbi qulluqçuların mülkiyyətinə ötən il 394 mənzil verilərək, ümumilikdə hərbi qulluqçulara ayrılmış mənzillərin sayı 1284-ə çatdırılıb.

Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü ilə sosial xidmətlərin şəffaf və vətəndaş məmnunluğu şəraitində göstərilməsi məqsədilə Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi və "DOST" mərkəzlərinin yaradılmasına başlanıb.

Bu ilin yanvar ayında istifadəyə veriləcək "Məşğulluq" sistemi işsiz və işaxtaran şəxslərin reyestrini, iş yerlərinin vakansiya bankını və məşğulluq xidmətlərinin elektronlaşmasını təmin edəcəkdir. Bu sistem vasitəsilə hər bir şəxs arzuladığı vakansiyaya elektron müraciət edəcək, eyni zamanda, işəgötürənlərin işçi qüvvəsinə sərbəst çıxışı reallaşacaq.

Pensiya təyinatı sahəsində "Pensiyaçının dostu" proqramı hazırlanıb və cari ildən avtomatlaşdırılmış pensiya təyinatına başlanılıb. Bu innovativ yanaşma əsasında, vətəndaşın hüququ yarandığı gün elektron qaydada pensiya təyinatı aparılır, ona pensiya məbləği, ödəniş kartını əldə edəcəyi bank filialı barədə "sms", e-mail və məktub göndərilir.

İslahatın tərkib hissəsi kimi, fərdi hesabında pensiya kapitalı olan şəxslərə 2006-cı ilədək 25 il sığorta stajı avtomatik hesablanır. Bu mühüm sosial təşəbbüs cari ildə əlavə olaraq 19 min 500 nəfərin pensiya almasına və onların aylıq gəlirlərinin 48 faiz artmasına imkan yaradacaq. Artıq 628 şəxsə elektron qaydada pensiya təyin edilib və pensiya hüququ yaranacaq şəxslərin 70 faizinin, yəni 36 min nəfərin pensiya təyinatı məhz avtomatlaşdırılmış şəkildə aparılacaq.

Aztəminatlı ailələrin sosial müdafiəsi məqsədilə ünvanlı dövlət sosial yardımı proqramının icrası davam edib, ötən ilin dekabrında yardımın orta aylıq məbləği 189 manata çatıb. Bu sahədə mənfi halların qarşısının alınması və ünvanlılığın təmin edilməsi nəticəsində təyinatların sayı 53 faiz azalıb, büdcə vəsaitlərinə 102 milyon manat və ya 49 faiz qənaət edilib.

2018-ci ildə keçirilmiş prezident seçkilərində əhalinin mütləq əksəriyyətinin etimadını yenidən qazanan dövlətimizin başçısının imzaladığı ilk fərman şəhid ailələri ilə bağlı növbəti humanist addım olub. Fərmanın icrası olaraq 11 min manatlıq ödənişin verilməsi üçün elektron xidmət yaradılıb və 3097 şəhidin 4190 vərəsəsinə məmur təması olmadan 34 milyon manat vəsait ödənilib.

Ölkəmizdə iqtisadi inkişafın aparıcı qüvvəsi olan sahibkarlığa dövlət dəstəyinin verilməsi möhtərəm Prezidentimizin müəyyən etdiyi iqtisadi inkişaf strategiyasının prioritetlərindən biridir. Son illərdə bu istiqamətdə dövlət tərəfindən görülən məqsədyönlü tədbirlər Dünya Bankının "Doing Business 2019" hesabatında öz əksini tapıb, ölkəmiz ümumi reytinqdə yeni rekorda imza ataraq dünyada 10 ən islahatçı dövlət siyahısına daxil olub. Bu, ölkəmizdə əlverişli investisiya mühitinin cəlbediciliyinin mühüm göstəricisi olmaqla, özəl, xarici və daxili sərmayələrin iqtisadiyyatımıza, xüsusən onun qeyri-neft sahələrinə axını üçün əlavə güclü təkan verib.

Sahibkarlığa dövlət dəstəyinin əyani göstəricisi kimi qeyd etmək yerinə düşər ki, hesabat ili ərzində kənd təsərrüfatı sahəsində çalışanlara 370 milyon manat məbləğində subsidiya və güzəştlər verilib, Sahibkarlığın İnkişafı Fondunun xətti ilə 999 sahibkara 160 milyon manat məbləğində güzəştli şərtlərlə kreditlər ayrılıb, İpoteka və Kredit Zəmanəti Fondu isə ölkə bankları tərəfindən kreditləşdirilən 277 milyon manat məbləğində ipoteka kreditlərini yenidən maliyyələşdirib, 17 milyon manat məbləğində kreditlərə bağlı zəmanət dəstəyi göstərib.

Ölkənin qeyri-neft məhsullarının ixracının təşviqi və stimullaşdırılması proqramı çərçivəsində sahibkarlara dövlət büdcəsindən 15 milyon manat məbləğində ixrac təşviqləri ödənilib.

Hesabat ilində sosial, fiziki infrastruktur və digər investisiya təyinatlı layihələrin maliyyələşdirilməsi üçün dövlət investisiya proqramı hesabına 5 milyard 64 milyon manat və Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondu hesabına 301 milyon manat – cəmi 5 milyard 365 milyon manat vəsait sərf edilib.

* * *

Prezident İlham Əliyev Nazirlər Kabinetinin iclasındakı yekun nitqində böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyini nəzərə alaraq bu il ölkəmizdə "Nəsimi ili" elan etdiyini deyib.

Dövlətimizin başçısı bununla bağlı yanvarın 11-də müvafiq sərəncam imzalayıb. Sərəncamda Azərbaycan xalqının çoxəsrlik ənənələrə malik bədii və fəlsəfi fikrində dərin iz qoymuş mütəfəkkir şair İmadəddin Nəsiminin zəngin irsinin bu gün də insanların mənəvi-əxlaqi kamilləşməsində mühüm əhəmiyyətə malik olduğu vurğulanıb.

***Vaqif BAYRAMOV, "Xalq qəzeti"***

# Ötən il həyata keçirilən islahatlar iqtisadi hədəflərə nail olmağa imkan yaradıb

***Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında ötən il ölkəmizdə əldə edilən uğurlarla yanaşı, eyni zamanda, növbəti il üçün hədəflər müəyyənləşdirildi. Dövlətimizin başçısının qeyd etdiyi kimi, ötən il ölkəmiz üçün uğurlarla yadda qalmış və nəzərdə tutulan hədəflərə tam nail olunmuşdur.***

Göründüyü kimi, 2017-ci ildə əldə edilən iqtisadi sabitlik keçən il iqtisadi artıma nail olunmasına imkan yaratdı. 2014-cü ildə dünya neft bazarında yaşanan şok inkişaf etmiş və inkişaf etməkdə olan neft ölkələrinə xarici faktor kimi təsir göstərməyə başladı. Xüsusən 2014-cü ildən etibarən Azərbaycan üçün əsas prioritet məhz xarici faktorların və şokların təsirlərini minimumlaşdırmaq oldu. Nəticə etibarilə 2017-ci ildə iqtisadiyyatda sabitliyin əldə olunmasını müşahidə etdik. Bu isə 2018-ci ildə bütün makroiqtisadi göstəricilərdə artımın reallaşmasına imkan yaratdı.



2018-ci ilin iqtisadiyyatında diqqətçəkən ən mühüm məqamlardan biri o oldu ki, Azərbaycan iqtisadiyyatında qeyri-neft sektoru üzrə artımlar ümumi iqtisadi artımları üstələdi. Qeyri-neft ÜDM-ni ümumi daxili məhsulla, qeyri-neft sənayesini sənayedəki artımla müqayisə etsək böyük fərqi aydın görə bilərik. Bu, ötən il ərzində qeyri-neft sektorunun daha çox və proqnozlaşdırılandan artıq inkişaf etdiyindən xəbər verir.

Qeyri-neft sənayesindəki artım bir daha təsdiq edir ki, qeyri-neft sənayesi və qeyri-neft sektoru artım faizi baxımından aparıcı mövqeyini qoruyub saxladı. Bu baxımdan 2018-ci il bütün əsas makroiqtisadi göstəricilərdə artımın qorunub saxlanması, eyni zamanda, artım tempinin keyfiyyət baxımından yenilənməsi və iqtisadiyyatın şaxələndirilməsi ilə bağlı imkanların artırılması kimi yadda qaldı.

Müşavirədə qeyd olunduğu kimi, sənaye istehsalı 1,5 faiz, qeyri-neft sektorunda isə sənaye istehsalı 9,1 faiz artmışdır. Bu isə o deməkdir ki, sənayedə artım daha çox qeyri-neft sektorunun inkişafı nəticəsində baş vermişdir. Belə vəziyyət isə ötən il iqtisadiyyatın diversfikasiyası ilə bağlı hədəflərə nail olunduğundan xəbər verir.

Qeyri-neft sektorundakı artımın yüksək olması, iqtisadiyyatın və iqtisadi tempin dayanıqlılıq göstərməsi əsas faktorlardan biridir. Ötən il həm ÜDM, həm sənaye istehsalı üzrə qeyri-neft sektorunda artım daha çoxdur. Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında qeyd olunduğu kimi, sənayeləşmə ölkəmiz üçün prioritet olaraq qalmaqdadır. Sənaye parklarının formalaşdırılması və dövlətin bu istiqamətdəki dəstəyi, xüsusilə 300-dən artıq investisiya təşviqi sənədinin verilməsi yerli investisiyanın sənayeyə cəlb edilməsi baxımından əhəmiyyətli olmuşdur. Bu da iqtisadi artımın dayanıqlılığını şərtləndirən əsas amildir.

Müşavirədə cənab Prezident 2018-ci ildə valyuta ehtiyatlarımızın 3 milyard dollar artdığını bildirdi. Belə ki, hesabat dövründə həyata keçirilən dərinləşmiş iqtisadi islahalar, o cümlədən, fiskal konsildasiya tədbirləri nəticəsində valyuta ehtiyatlarımız 45 milyard dollaradək yüksəlmişdir. Müşavirədə xarici borcumuzun ÜDM-də payının 22,8 faizdən 19 faizə düşməsi ilə bağlı açıqlanan rəqəm isə ötən il ölkəmizdə iqtisadi təhlükəsizlik ilə bağlı sığorta yastığının möhkəmləndirildiyindən xəbər verir. Nəzərə alsaq ki, beynəlxalq standartlara görə, ÜDM-də dövlət borcunun payı 35 faizdən, başqa sözlə, ÜDM-in üçdə birindən azdırsa, bu, nisbətən normal hal kimi qiymətləndirilir. Azərbaycan regionun az sayda ölkələrindən biridir ki, xarici borcun ÜDM-dəki payını 20 faizdən aşağı həddə qoruyub saxlaya bilir. Bu rəqəm bir daha göstərir ki, Azərbaycan praktiki olaraq xarici borc asılılığına malik olan ölkə deyil.

Respublikamız nəinki MDB-də, eyni zamanda Mərkəzi-Şərqi Avropa ölkələrində xarici borcun ÜDM-dəki payına görə ən yaxşı göstəricilərə malikdir. Eyni zamanda, Azərbaycan dövlət rezervlərinin ÜDM-dəki payına görə MDB-də, eləcə də Mərkəzi-Şərqi Avropa ölkələrində ən yaxşı göstəriciyə malikdir. Bu isə məhz 2018-ci ildə aparılan islahatların makro-iqtisadi sabitliyin qorunub saxlanmasına xidmət etdiyindən xəbər verir.

Azərbaycan Prezidenti xarici borcun tənzimlənməsi ilə bağlı hədəfləri də elan etdi. Cənab İlham Əliyev bildirdi ki, "bu məsələ ilə bağlı indi müvafiq proqram hazırlanıb. Mən hesab edirəm ki, biz borcu tədricən azalda-azalda getməliyik".

Qeyd edək ki, bir müddət öncə dövlət başçısı tərəfindən təsdiq edilən "Azərbaycan Respublikasında dövlət borcunun idarə edilməsinə dair orta və uzun müddət üçün Strategiya"sı ölkədə xarici borcun tənzimlənməsi və idarə edilməsi baxımından ciddi bir baza formalaşdırır. Eyni zamanda, həmin strategiyada dayanıqlı və idarəolunan dövlət borcu səviyyəsinin müəyyənləşdirilməsi, risklərin idarəedilməsi sisteminin təkmilləşdirilməsi, dövlət borcalmaları üzrə infrastrukturun və nəzarət mexanizminin gücləndirilməsinə nail olunması kimi hədəflər müəyyənləşdirilmişdir.

İndiki dövrdə və xarici şokların hər zaman fəal olduğu vaxtda dövlət borcu səviyyəsinin dayanıqlı və idarəedilən şəkildə olması çox vacibdir. Strategiyaya uyğun olaraq, Azərbaycanda xarici borcun tənzimlənməsi, ümumiyyətlə, 2025-ci ilədək xarici borc səviyyəsinin məhz tənzimlənən həddə qədər azaldılması nəzərdə tutulur. Bu isə ondan xəbər verir ki, ötən il xarici borcun idarəedilməsi ilə bağlı davam etdirilən islahatlar növbəti illərdə də prioritet olaraq qalacaq.

Müşavirədə qeyd olunduğu kimi, 2018-ci ildə həm ölkəmiz, həm də region üçün Azərbaycanın təşəbbüsü ilə reallaşan bir sıra layihələrin başlaması kimi yadda qaldı.




40 milyard dollardan artıq sərmayəsi olan, region üçün strateji əhəmiyyətli layihə sayılan Cənub Qaz Dəhlizinin açılışı həyata keçirildi. Bu layihənin reallaşması birbaşa dövlətimizin başçısının siyasi iradəsi nəticəsində mümkün oldu. İnvestisiya tutumu yüksək olduğu üçün layihənin reallaşması üçün qeyri-müəyyənliklər vardı. Lakin buna rəğmən Azərbaycan öz siyasi iradəsini nümayiş etdirməklə, ölkəmizin birbaşa təşəbbüsü və imkanları daxilində layihə reallaşdı. Bu, qonşu Türkiyə bazarına əlavə olaraq 8 milyard kubmetr mavi qazın nəqli, Avropaya ilk mərhələdə 10 milyard, ikinci mərhələdə isə 20 milyard kubmetr mavi qaz nəqli deməkdir. Bütövlükdə, layihə Avropa və Türkiyə bazarına 31 milyard kubmetrdən artıq mavi qaz nəqlinə imkan verəcək. Bu, həmçinin şərait yaradacaq ki, Azərbaycan Cənub Qaz Dəhlizinin reallaşmasından 120 milyard dollardan artıq gəlir əldə edə bilsin.

Müşavirədə həmçinin bəyan edildi ki, növbəti dövrdə də qeyri-neft sektorunun inkişafı prioritet olacaq. Bu, makroiqtisadi göstəricilərdə neftin payının azalmasına və neftdən asılılığın aradan qaldırılması prosesinin sürətlənməsinə imkan verəcək, çünki neftdən asılılığın aradan qaldırılması Azərbaycan üçün prioritet məqamlardan biridir.

Bütövlükdə, 2018-ci ildə baş verən iqtisadi hadisələri və makroiqtisadi göstəricilərdəki artımı nəzərə alsaq, bütün bunlar növbəti il üçün daha sürətli iqtisadi artım üçün baza formalaşdırdı. Fiskal siyasətdə proqnozlaşdırılan artımlar, xüsusən qeyri-neft sektorunun inkişafı hesabına iqtisadiyyatın şaxələndirilməsi ilə bağlı hədəflər 2019-cu ildə sürətli iqtisadi artıma nail olunması üçün əlverişli şərait yaradır.

***Vüqar BAYRAMOV, iqtisadçı ekspert***

# Daxili Qoşunların 2018-ci ildə xidməti-döyüş fəaliyyətinin yekunlarına həsr olunmuş müşavirə



***Yanvarın 12-də Daxili İşlər Nazirliyində (DİN) Daxili Qoşunların 2018-ci ildə xidməti-döyüş fəaliyyətinin yekunlarına həsr olunmuş naziryanı əməliyyat müşavirəsi keçirilib.***

DİN-in mətbuat xidmətindən bildiriblər ki, müşavirədə çıxış edən daxili işlər naziri, general-polkovnik Ramil Usubov ulu öndər Heydər Əliyevin əsasını qoyduğu inkişaf və tərəqqi strategiyasının Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində ölkəmizin iqtisadi qüdrətinin, müdafiə potensialının, beynəlxalq mövqelərinin 2018-ci ildə əhəmiyyətli dərəcədə möhkəmləndiyini vurğulayıb. General-polkovnik Ramil Usubov dövlətimizin başçısının ordu quruculuğuna, o cümlədən Daxili Qoşunların fəaliyyətinin təkmilləşdirilməsinə, maddi-texniki təminatın, iş və məişət şəraitinin daha da yaxşılaşdırılmasına daim xüsusi diqqət göstərdiyini vurğulayıb.

Nazir Daxili Qoşunların ölkəmizdə müstəqilliyin və daxili sabitliyin qorunmasında xüsusi xidmətləri olduğunu diqqətə çatdıraraq, şəxsi heyətin ictimai asayişin qorunmasında və ictimai təhlükəsizliyin təmin olunmasında, cinayətkarlığa qarşı mübarizədə, xüsusi əməliyyatların keçirilməsində fəal iştirakını, yüksək peşəkarlığa, döyüş və mənəvi-psixoloji hazırlığa malik quruma çevrildiyini məmnunluqla bildirib.

Qeyd olunub ki, görülmüş işlər dövlətimizin başçısı tərəfindən layiqincə qiymətləndirilir. Bu ali diqqət və qayğı hərbi qulluqçulardan üzərlərinə düşən vəzifələri daha böyük məsuliyyətlə yerinə yetirməyi, sabitliyin, təhlükəsizliyin, əmin-amanlığın, insan və vətəndaş hüquq və azadlıqlarının nümunəvi təminini, heç bir halda arxayınlaşmamağı tələb edir.

Daxili işlər nazirinin müavini-Daxili Qoşunların komandanı, general-leytenant Şahin Məmmədov xidməti-döyüş fəaliyyətinin yekunları barədə məruzə edib.

Ş.Məmmədov ötən il normativ-hüquqi bazanın təkmilləşdirilməsinin, təlimlərin real döyüş şəraitinə uyğunlaşdırılmasının, maddi-tədris bazasının inkişaf etdirilməsinin, şəxsi heyətin nəzəri biliklərinin artırılmasının, onlara yüksək peşəkar praktiki vərdişlərin aşılanmasının, mənəvi-psixoloji və fiziki hazırlıq səviyyəsinin yüksəldilməsinin döyüş təliminin əsas vəzifələri olaraq həyata keçirildiyini diqqətə çatdırıb. Vurğulanıb ki, qanunçuluğun, hərbi intizamın möhkəmləndirilməsi, hərbi qulluqçular arasında qarşılıqlı münasibətlərin nizamnamə qaydalarına uyğun riayət edilməsi sahəsində həyata keçirilən ardıcıl tədbirlərin nəticəsi olaraq qrup halında nizamnamədən kənar münasibətə yol verilməyib.

Ötən il şəxsi heyətin kazarma-məişət şəraitinin yaxşılaşdırılması və müasir standartlara uyğunlaşdırılması, hərbi hissə və bölmələrin silah və xüsusi texnika ilə təchizatı istiqamətində nəzərdə tutulan işlər uğurla icra edilib.

Müşavirəyə yekun vuran daxili işlər naziri ötən hesabat ilində şəxsi heyətin xidməti-döyüş fəaliyyətinin yekunlarını yüksək qiymətləndirib, qarşıda duran vəzifələrdən danışıb, onların həlli yollarını göstərib, konkret tapşırıq və tövsiyələrini verib. O bildirib ki, hərbi qulluqçuların mənəvi-psixoloji hazırlığının daha da yüksəldilməsi, o cümlədən şəxsi heyətin Vətənə və hərbi anda sədaqət, hərbi nizamnamələrin tələblərinə sözsüz əməl edilməsi ruhunda tərbiyə olunması istiqamətində zəruri tədbirlər davam etdirilməlidir.

Nazir bu il Daxili Qoşunlarda bütün təşkilati tədbirlərin müəyyən edilmiş vaxtda keçirilməsinin, bu zaman qarşıya qoyulmuş xidməti-döyüş tapşırıqlarının layiqincə yerinə yetirilməsinin əhəmiyyətini vurğulayıb.

General-polkovnik Ramil Usubov hərbi hissələrdə idarəçilik fəaliyyətinin, döyüş xidmətinin təşkilinin və aparılmasının, fiziki və döyüş hazırlığının daha da yüksəldilməsinin, ekstremal hallar da daxil olmaqla, onların polis əməkdaşları ilə birbaşa istənilən əmr və göstərişləri ən yüksək səviyyədə icrasına hər zaman hazır olmalarını tələb edib.

Nazir Daxili Qoşunların şəxsi heyəti adından əminliklə bildirib ki, hərbi qulluqçular qanunvericiliklə müəyyənləşdirilmiş vəzifələrin və verilən tapşırıqların öhdəsindən bundan sonra da layiqincə gələcək, xalqa, dövlətə və Prezidentə sədaqətlə xidmət edəcəklər.

**AZƏRTAC**

# Hava Nəqliyyatında Baş Gömrük İdarəsinin rüşvət almaqda ittiham edilən vəzifəli şəxsləri məsuliyyətə cəlb olunub

***Azərbaycan Respublikasında həyata keçirilən dayanıqlı sosial-iqtisadi inkişaf kursunun başlıca prioritetlərindən biri kimi gömrük işinin səmərəli təşkili sahəsində reallaşdırılmış ardıcıl və məqsədyönlü tədbirlərin icrası uğurla davam etdirilir. Ölkənin iqtisadi təhlükəsizliyinin və daxili bazarının qorunmasında, onun beynəlxalq iqtisadi və ticarət əlaqələrinin genişləndirilməsində müstəsna rola malik gömrük sistemində cinayətkarlıq və digər hüquqpozmalarla mübarizə sahəsində də mühüm nailiyyətlər əldə olunmaqdadır.***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin gömrük sahəsində şəffaflığın, dürüstlüyün təmin edilməsi, korrupsiyaya qarşı mübarizənin aparılması ilə bağlı göstərişlərinə uyğun olaraq, bu sahədə yol verilmiş qanun pozuntularının qarşısının alınması və aşkar edilmiş korrupsiya hüquqpozmalarına qarşı mübarizə çərçivəsində Dövlət Gömrük Komitəsi ilə Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsi tərəfindən birgə tədbirlərin görülməsi davam etdirilir.

Dövlət Gömrük Komitəsinin və Baş Prokurorluğun mətbuat xidmətlərinin AZƏRTAC-a daxil olan birgə məlumatında bildirilib ki, müxtəlif şəxslərin adlarına "Camex" daşıma şirkəti vasitəsilə beynəlxalq poçt bağlamalarında göndərilən kommersiya təyinatlı yüklərin Azərbaycan Respublikasının gömrük sərhədindən düzgün bəyan edilməməklə və sənədlərdən aldatma yolu ilə istifadə edilməklə, qaçaqmalçılıq yolu ilə ölkəyə gətirilməsi barədə Hava Nəqliyyatında Baş Gömrük İdarəsinə məlumat daxil olub. Məlumata əsasən həmin daşıma şirkətinin yerləşdiyi ünvanda həyata keçirilmiş əməliyyat tədbiri nəticəsində 8 ədəd beynəlxalq poçt bağlamasına baxış keçirilib. Hava Nəqliyyatında Baş Gömrük İdarəsinin Poçt göndərişləri Gömrük Postunda qanunvericiliklə müəyyən edilmiş qaydada qeydiyyata alınmamış həmin bağlamalarda müxtəlif şəxslərin adlarına cəmi 23 min manat dəyərində elektron qurğular aşkarlanaraq götürülüb.

Dövlət Gömrük Komitəsi tərəfindən bu barədə aparılmış ilkin araşdırmalar nəticəsində ayrı-ayrı şəxslərin adlarına rəsmiləşdirilmiş kommersiya təyinatlı yüklərin saxta sənədlərdən istifadə olunaraq aldatma və Azərbaycan Respublikasının gömrük orqanlarına düzgün bəyan edilmədən qaçaqmalçılıq yolu ilə ölkəyə gətirilməsi, habelə bu məqsədlə Dövlət Gömrük Komitəsinin Hava Nəqliyyatında Baş Gömrük İdarəsinin vəzifəli şəxsləri tərəfindən xidmət üzrə ümumi himayədarlıq müqabilində müxtəlif şirkətlərin rəhbərlərindən rüşvət alınması, eləcə də səhlənkarlıq faktlarına görə Cinayət Məcəlləsinin 206.3.2-ci (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədilən qaçaqmalçılıq), 308.1-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə), 309.1 (vəzifə səlahiyyətlərini aşma), 311.3.1-ci (qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən rüşvət alma), 311.3.3-cü (rüşvət alma külli miqdarda törədildikdə), 313-cü (vəzifə saxtakarlığı) və 314.1-ci (səhlənkarlıq) maddələri ilə başlanmış cinayət işi aidiyyəti üzrə Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinə göndərilib.

Baş idarədə aparılmış istintaqla komitənin Hava Nəqliyyatında Baş Gömrük İdarəsinin Poçt göndərişləri Gömrük Postunun rəisi vəzifəsində işləmiş İsmayıl Abdullayevin postun rəis müavini Rəşad Rzayevlə qabaqcadan əlbir olub xidməti vəzifələrinin icrası ilə əlaqədar edəcəkləri hərəkət və xidmət üzrə ümumi himayədarlıq müqabilində, yeni "Camex" və "Mover" məhdud məsuliyyətli cəmiyyətlərinin ölkəyə gətirdiyi və gömrük baxışından da olan ayrı-ayrı şəxslərə məxsus malların rəhbəri olduğu gömrük postunda baxışının tam şəkildə həyata keçirilməmiş qısa müddətdə yekunlaşdırılmaqla malların şirkətlərin əməkdaşlarına və mal sahiblərinə təqdim edilməsinə görə Bakı şəhəri ərazisində müxtəlif ünvanlarda "Camex" MMC-nin icraçı direktoru Qurban Mərdanovdan aylıq 6 min manat olmaqla cəmi 18 min manat, habelə "Mover" MMC-nin icraçı direktoru Arif Şəmistanlıdan aylıq 6 min manat olmaqla, cəmi 12 min manat məbləğində pulu özü və qabaqcadan əlbir olduğu Rəşad Rzayev üçün sonuncu vasitəsilə rüşvət qismində almasına əsaslı şübhələr müəyyən edilib. İ.Abdullayevə və R.Rzayevə Cinayət Məcəlləsinin 311.3.1-ci, 311.3.2-ci, 311.3.3-cü maddələri ilə ittiham elan olunaraq barələrində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

Hazırda cinayət işi üzrə qeyd olunan qanunsuz halların tam və hərtərəfli araşdırılmaqla digər təqsirli şəxslərin dairəsinin tam müəyyənləşdirilərək məsuliyyətə cəlb olunmaları, habelə vurulmuş ziyanın ödənilməsinin təmin edilməsi istiqamətində zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.

# *Akademik:* 2019-cu ilin "Nəsimi ili" elan edilməsi nəsimişünaslığın inkişafına böyük təkan verəcək

***Prezident İlham Əliyev tərəfindən 2019-cu ilin ölkədə "Nəsimi ili" elan edilməsi çox əlamətdar və təqdirəlayiq hadisədir.***



Bunu Trendə Milli Məclisin deputatı, AMEA-nın akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun direktoru, akademik Gövhər Baxşəliyeva Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında 2019-cu ilin "Nəsimi ili" elan edilməsinə münasibət bildirərkən deyib.

Deputat əlavə edib ki, Prezident İlham Əliyev tərəfindən 2019-cu ilin ölkədə "Nəsimi ili" elan edilməsi çox əlamətdar və təqdirəlayiq hadisədir. İlk növbədə ona görə ki, bu il bütün mütərəqqi bəşəriyyət tərəfindən dahi Azərbaycan şairi və mütəfəkkiri Seyid İmadəddin Nəsiminin 650 illik yubileyi qeyd ediləcək və UNESCO çərçivəsində də bu il "Nəsimi ili" elan edilir: "Bizim üçün 2019-cu ilin "Nəsimi ili" elan edilməsi xüsusi əhəmiyyət kəsb edir. Nəsimi – böyük humanist şair, insanı ilahiləşdirən, onu ucaldan bənzərsiz şeirlərin müəllifi, Azərbaycan dilinin formalaşmasında müstəsna rol oynamış şairimizdir. Onun yaradıcılığının ideya-mövzu və bədii-estetik cəhətləri, bütövlükdə poetikası şairi orta əsrlərin ən qüdrətli söz və fikir sərrafları ilə bir cərgəyə qoyur. Şairin azad ruhu, cəsarəti, həqiqətpərəstliyi, qorxmazlığı, orta əsrlər qaragüruhunun bütün sahələrdə tüğyan etdiyi bir dövrdə nadanlığa, cəhalətə qarşı "ənəlhəqq" deyən insanın möhtəşəm üsyanı idi. Nəsimi yaradıcılığı istibdada, sosial ədalətsizliyə qarşı, qəddarlığa, hər növ zülmə qarşı böyük etiraz idi. Onun şeirləri insan əqlini və gözəlliyini vəsf edərək, şəxsiyyəti hər növ qadağalardan azad edərək, fanatizm və mövhumata qarşı yönəlmişdi. Bir sözlə, Nəsimi yaradıcılığının əsas ideyası – azad ruhlu, hər növ məhrumiyyətlərə qalib gələ bilən, ədalətsizliklə barışmayan yeni insanın yetişməsinə xidmət edir ki, bu da müasirliyimizlə kifayət qədər möhkəm uzlaşır.

Düşünürəm ki, möhtərəm Prezidentimizin 2019-cu ili "Nəsimi ili" elan etməsi ölkəmizdə nəsimişünaslığın inkişafına böyük təkan verəcək, yeni-yeni kitab, monoqrafiya və sənət əsərlərinin yaranmasını stimullaşdıracaq".

Akademik qeyd edib ki, Nəsimi yaradıcılığının mübarizliyi, haqqı bütün varlığı ilə müdafiə etməsi, nahaqqa qarşı son damla qanınacan vuruşması böyük, möhtəşəm örnək olaraq bütün xalqımıza, ilk növbədə, gənc nəslimizə öz müsbət təsirini göstərəcək: "Bu qərar ölkəmizdə yüksək ideallara, mənəvi həyata, mədəniyyətə, şeirə, sənətə, onların inkişafına nə qədər böyük diqqət yetirildiyinin təzahürüdür. Bütün bunlara görə ölkə Prezidenti cənab İlham Əliyeva dərin təşəkkürümü bildirirəm".

# *Ekspert:* Prezident İlham Əliyev Ermənistanda saxta seçkilərlə hakimiyyəti mənimsəmiş Sarkisyan rejiminin beynəlxalq qurumlarla cinayət əlaqələrini ifşa etdi

***Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında Azərbaycanın daxili və xarici siyasətini dəqiq xarakterizə edən yeni faktlar, fikir və təhlillərlə tanış olduq.***



Bunu Trendə açıqlamasında "Bakı xəbər" qəzetinin baş redaktoru, siyasi ekspert Aydın Quliyev deyib.

Onun sözlərinə görə, bu ənənəvi iclasların əsas dəyəri ilboyu aparılan siyasətin bütün siyasi, iqtisadi, sosial və beynəlxalq nəticələri barədə ilk növbədə cəmiyyətimizin təsəvvürlərini daha da konkretləşdirməkdən ibarətdir: "Eyni zamanda, Azərbaycandakı prosesləri müxtəlif motivlər və maraqlarla izləyən beynəlxalq dairələri konkret bilgilərlə təmin etmək baxımından əhəmiyyətlidir. İctimai-siyasi sabitliyin və təhlükəsizliyin dinamik olaraq möhkəmləndirildiyi şəraitdə Azərbaycan əhalisinin rifahının və iqtisadiyyatın da güclənməsi barədə Prezident İlham Əliyevin fikri çoxsaylı məsələyə ehtiva edir. Dünya və cəmiyyətimiz bu gün Azərbaycan liderinin apardığı siyasətin əsas qayəsini təşkil edən belə bir dəqiq və aydın mesajı ala bildi – daxili ictimai-siyasi sabitliyin və təhlükəsizliyin təmin edilməsi sosial-iqtisadi sahədə konkret nəticələrin və Dağlıq Qarabağ münaqişəsinin həllinə möhkəm baza yaratmağın həlledici şərtidir".

Ekspert qeyd edib ki, Azərbaycanın beynəlxalq miqyasda əldə etdiyi nəticələri dəyərləndirərkən Prezident İlham Əliyevin göstərdiyi arqumentləri əsasən üç istiqamətdə şərti olaraq konkretləşdirmək olar: "Ölkəmizin beynəlxalq nüfuzunun yüksəlməsi, Azərbaycanla əməkdaşlığa meyilli ölkələrin sayının çoxalması və qonşu ölkələrlə münasibətlərin daha da dərinləşməsi. Bunların hər biri haqqında ayrıca müzakirələr açılacağı halda ölkənin ötən il necə uğurlu diplomatik fəaliyyət göstərdiyinə bir daha əminlik hasil olar".

A.Quliyev bildirib ki, eyni sözləri iqtisadi-sosial sektoru xarakterizə edən məlumatlar barədə də söyləmək mümkündür: "Qeyri-neft sektorunda, sənayedə, kənd təsərrüfatında, ixracatda, valyuta ehtiyatlarının həcmində və sair sahələrdə böyük artım barədə Prezident İlham Əliyevin dediklərinin hər biri mütəxəssislər, elm adamları və dövlət məmurları üçün geniş materiallardır. Cəmiyyətimiz inkişaf yolunun dəyişməzliyi və növbəti illərdə də davam etdiriləcəyinə bir daha əmin oldu. Bu, mövcud siyasətin xalq tərəfindən daha dərin başa düşülməsi və daha fəal dəstəklənməsi üçün çox güclü motiv mənbəyidir. Prezident bu məsələdə də tam haqlı və dəqiqdir ki, ötən il həyata keçirilmiş layihələr dövlətimizin həm gücünü artırdı, həm də nələrə qadir olduğunu əyani göstərdi. Müşavirə Azərbaycanın bütün dövlət idarə və təşkilatlarını özlərinin bir illik fəaliyyətlərinə yenidən baxmağa yönləndirdi. Bu nöqteyi-nəzərdən dövlət başçısının gömrük və vergi sahəsində islahatların nəticələrini ayrıca qeyd etməsini nümunə göstərmək olar. Prezident ölkənin daxili həyatının bütün sahələrində həm müsbət və ya neqativ təzahürləri diqqətlə izlədiyini, gərəkli hallarda müdaxilələr etdiyini bir daha nümayiş etdirdi".

Ekspert vurğulayıb ki, 2018-ci ildə əldə olunmuş nəticələrin rəqəmlər və mühakimələr formasında nəzərdən keçirilməsi işlərin 2019-cu ildə də artan templə davam etdiriləcəyi barədə Prezident İlham Əliyevin fikirlərinə möhkəm ictimai inam yaradır: "Bir neçə aydan sonra təsdiqlənəcək ki, bir çox uğurların fundamenti həqiqətən 2018-ci ildə qoyulmuşdur. Bu baxımdan Prezidentin Dağlıq Qarabağ münaqişəsi ilə bağlı söylədiklərinə xüsusi diqqət yetirmək lazım gəlir. Azərbaycan xalqının işğalla heç vaxt barışmayacağını bir daha bəyan edən dövlət başçısı 2018-ci ildəki hərbi uğurları və 11 min hektar ərazimizin işğaldan azad edilməsini təsadüfən xatırlatmadı. Bu, birmənalı olaraq o deməkdir ki, Ermənistan həqiqi sülh danışıqları masasına oturmasa və münaqişənin həllinə prosesinə aqressiv yanaşmanı köklü şəkildə dəyişməsə, Azərbaycan öz ərazilərini güc yolu ilə hissə-hissə azad etmək planlarını 2019-cu ildə də tərəddüdsüz davam etdirəcək".

Aydın Quliyev daha sonra bildirib ki, Nazirlər Kabinetinin budəfəki iclasının mühüm tarixi əhəmiyyətindən biri də Ermənistanda 20 ildən çox müddət ərzində seçki saxtakarlığı yolu ilə hakimiyyəti mənimsəmiş xunta rejiminin müəyyən beynəlxalq qurumlarla rüşvət və korrupsiya söykənən cinayət əlaqələrinin ifşa edilməsi oldu: "Koçaryan-Sarkisyan qrupu hər dəfə seçkiləri saxtalaşdıranda bunu "demokratiya yolunda irəliyə mühüm addım kimi" alqışlara qarşılayan beynəlxalq təşkilatların təmsilçiləri bu ağır məsuliyyətin altına aldıqları böyük məbləğlərdə rüşvətlərin hesabına girirdilər. Azərbaycan Prezidenti bu cinayətlərin araşdırılmasına çağırış etməklə, əslində, dünya demokratiyasına qarşı yaxın tarixdə həyata keçirilmiş böyük bir qəsdin üstünü açdı. Dövlət başçısı bununla həm də Dağlıq Qarabağ uğrunda ədalətli mübarizə tariximizdə yeni məzmunlu istiqamətin əsasını qoydu. Sübut etdi ki, Ermənistan hakimiyyəti təkcə Azərbaycan xalqına yox, həm də dünya demokratiyasına qarşı çoxsaylı cinayətlər törədib".

# "China Daily" qəzeti Bakının müasir memarlığından yazır

***Çinin nüfuzlu "China Daily" qəzeti Azərbaycan paytaxtının müasir memarlıq nümunələri haqqında məqalə yayıb.***

Qəzetin AZƏRTAC-ın materiallı əsasında təqdim etdiyi "Müasir Bakının memarlıq rəmzləri" adlı məqalədə qeyd olunur ki, Azərbaycan paytaxtı həmişə özünün memarlıq görkəmi ilə şöhrət qazanıb. Bildirilir ki, şəhərdə Qız qalası, Şirvanşahlar sarayı kimi tarixi memarlıq nümunələri ilə yanaşı, müasir dövrdə tikilən möhtəşəm binalar göz oxşayır.

Yazıda vurğulanır ki, ölkənin sürətli inkişafı ilə bərabər paytaxtın da görkəmi dəyişib, bir-birindən gözəl tikililər inşa edilib. Həmin binalar hazırda müasir Bakının memarlıq rəmzləri hesab olunur. Qəzet nümunə olaraq dünyaca məşhur memar Zaha Hadidin layihəsi əsasında inşa olunan Heydər Əliyev Mərkəzi, Dövlət Bayrağı meydanı yaxınlığındakı "Crystal Hall, "Külək-alov" konsepsiyası əsasında tikilən "SOCAR Tower", səthi tamamilə LED ekranlarla örtülən "Alov qüllələri", Bakı Ağ Şəhər layihəsi, "Park Bulvar" ticarət mərkəzi, habelə inşası davam edən iri tikililər barədə məlumat verib.

***Şahin CƏFƏROV,***
***AZƏRTAC-ın xüsusi müxbiri***

**Pekin**

# 20 YANVAR – unudulmayan tarix



## ❐ 20 Yanvar faciəsi

***Azərbaycan xalqının tarixinə qanla yazılmış bir səhifədir. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə dinc və günahsız Azərbaycan xalqı qanına qəltan edildi.***

Əslində, həmin gecə özünü sovet tanklarının qabağına vermiş insanların günahı Azərbaycanın ərazi bütövlüyünü qorumaq istəkləri olub. 1988-ci ilin fevralından Dağlıq Qarabağın erməni əhalisi muxtar vilayətin Ermənistana birləşdirilməsi tələbi ilə çıxış edirdi və bu tələb Ermənistan, eləcə də SSRİ hökuməti, xüsusən Sov.İKP MK-nın Baş katibi Mixail Qorbaçov tərəfindən də dəstəklənirdi. Bakıdakı Azadlıq meydanına toplaşmış minlərlə insan isə yalnız buna etiraz edir, mərkəzi hökumətdən bu özbaşınalığa son qoyulmasını tələb edirdi.

Mərkəzi hakimiyyət – rəsmi Moskva isə Azərbaycan xalqının haqlı tələbinin qarşısına SSRİ Silahlı Qüvvələrinin ən müasir silah-sursatlarını, tanklarını çıxardı. Bununla da yanvarın 19-dan 20-nə keçən gecə və sonrakı bir neçə gün ərzində Bakıda və Azərbaycanın digər bölgələrində 147 nəfər qəddarcasına öldürüldü, 744 nəfər yaralandı, 800-dən çox insan qanunsuz həbs olundu. Öldürülənlər və yaralananlar arasında qadınlar və qocalar, hətta uşaqlar da vardı. Onlardan bəziləri ömürlük şikəst oldu.

Bu, bütün dünya azərbaycanlılarının, dünyanın hansı ölkəsində yaşamasından asılı olmayaraq, damarlarında azərbaycanlı qanı axan hər kəsin faciəsi idi. Bu amansız qətliamdan təkcə Bakı və Azərbaycan deyil, bütün türk dünyası, o taylı-bu taylı azərbaycanlılar, Borçalı, Dərbənd sakini olan soydaşlarımız sarsıldılar. Bu faciə Avropada, Amerikada yaşayan soydaşlarımızı da dərindən sarsıtdı. Hər yandan Moskvanın riyakar və ədalətsiz siyasətinə lənətlər yağdırıldı. Bakıya qoşun yeridilməsi haqqında qərar vermiş Qorbaçov lənətləndi.

Həmin günlərdə bütün soydaşlarımız kimi borçalılar da yas tutdular. Demək olar ki, bütün Gürcüstan Qafqazın bu ağır faciəsi qarşısında sarsılmışdı. O zaman Tbilisidə nəşr olunan azərbaycandilli "Sovet Gürcüstanı" qəzeti, eləcə də gürcüdilli mətbuat Bakı faciəsi ilə bağlı materiallar dərc etdilər, sovet ordusunun törətdiyi vəhşilikləri əks etdirən şəkillər dərc edildi. Bütövlükdə gürcü xalqı azərbaycanlılarla həmrəy olduğunu, dərdimizə şərik çıxdığını bəyan etdi. Borçalının azərbaycanlı sakinləri isə bizimlə birlikdə ağladılar, matəm saxladılar.




20 Yanvar gecəsində əslən Borçalıdan olan soydaşlarımız da şəhidlik zirvəsinə ucaldı. Onların adlarını bir daha xatırladırıq:

**İsmayıl Həsən oğlu Mursaqulov (1939-1990)**

İsmayıl Həsən oğlu Mursaqulov 1939-cu il noyabrın 23-də qədim Borçalı mahalının – indiki Marneuli rayonunun Qızılhacılı kəndində anadan olub. Bakı Dövlət Universitetinin kimya fakültəsini bitirib, 1985-ci ildə Moskvada doktorluq dissertasiyası müdafiə edib.

Yanvarın 24-də dostu, professor İbrahim İbrahimovla birgə onun "Jiquli"sində Azərbaycan SSR Elmlər Akademiyasının Sumqayıt filialına işə gedərkən Bakı-Sumqayıt yolunun 22-ci kilometrliyində tank onların maşınının üstündən keçib. Maşındakı beş nəfərdən üçü yerindəcə həlak olub. Bir qədər sonra ölkəyə İsmayıl Mursaqulov, Svetlana Məmmədova və İbrahim İbrahimov adlı üç görkəmli alimin şəhid olması xəbəri yayılıb.

Professor İsmayıl Mursaqulov Şəhidlər xiyabanında dəfn olunub.

**Tengiz Məmməd oğlu Turabov (1966-1990)**

Tengiz Məmməd oğlu Turabov 1966-cı ildə Bolnisi rayonundakı Kəpənəkçi (indiki Kvemo-Bolnisi) kəndində anadan olub. Əslində İrkutskda yaşayan, burada inşaat sahəsində çalışan, həm də tibb məktəbinin 1-ci kurs tələbəsi olan Tengiz həmin hadisələr ərəfəsində Bakıya məzuniyyətə gəlmişdi. Həkim olmaq, xalqına xidmət etmək arzusu ilə yaşayırdı. O müdhiş gecədə Şmidt adına zavodun qarşısında amansızcasına qətlə yetirildi.

Tenqiz Turabov Şəhidlər xiyabanında dəfn edilib.

**Ələsgər Yusif oğlu Qayıbov (1966-1990)**

Ələsgər Yusif oğlu Qayıbov 1966-cı il martın 15-də Qaraçöp mahalında – Gürcüstanın Saqareco rayonundakı Yormuğanlı kəndində anadan olub. Azərbaycan İnşaat Mühəndisləri İnstitutunun ikinci kurs tələbəsi idi. O gecə xeyli yaralıya kömək edib, onları metronun "Gənclik" stansiyasının yanından götürərək 5 nömrəli xəstəxanaya aparıb və geri qayıdıb. Sonuncu dəfə özü də xəstəxanaya yaralı kimi gətirilib. Üzərində mürəkkəb cərrahiyyə əməliyyatı aparılsa da, həyatını xilas etmək mümkün olmayıb. Yanvarın 21-də səhər saat 7-də gözlərini əbədi yumub.

**İlqar Hümmət oğlu Əhmədov (1965-1990)**

İlqar Hümmət oğlu Əhmədov 1965-ci il mayın 25-də Bolnisi rayonundakı Faxralı kəndində anadan olub. Azərbaycan Politexnik İnstitutunun (indiki Azərbaycan Texniki Universitetinin) 4-cü kurs tələbəsi idi. Yanvarın 19-dan 20-nə keçən gecə dostları ilə birlikdə Salyan Kazarmasının yanında olub. Əsgərlər dinc əhaliyə divan tutanda İlqar dostları ilə yaralıları və ölüləri maşınlara yerləşdirib xəstəxanalara yola salıb. Bu isə imperiya xidmətçilərinin xoşuna gəlməyib, gecə saat 02.30-da İlqar da sol gözündən güllə yarası alaraq həlak olub.

Mərhum Faxralı kəndində – anadan olduğu torpaqda dəfn edilib.

**Rəşid İslam oğlu İsmayılov (1949-1990)**

Rəşid İslam oğlu İsmayılov 1949-cu il avqustun 27-də Gürcüstanın Qardabani rayonundakı Ağtəhlə kəndində anadan olub. Rostov Dəmir Yolu İnstitutunu bitirib. Azərbaycan Dövlət Dəmir Yolu İdarəsində dispetçer vəzifəsində işləyib. 20 Yanvar gecəsində işdən evə qayıdarkən Biləcəri qəsəbəsində qarın nahiyəsindən yara alıb, qəsəbədəki 2 nömrəli dəmir yolu xəstəxanasına çatdırılıb, cərrahiyyə əməliyyatından 3 gün sonra – yanvarın 23-də vəfat edib.

Mərhum Şəhidlər xiyabanında dəfn edilib.

**Vəfadar Osman oğlu Eminov (1966-1990)**

Vəfadar Osman oğlu Eminov 1966-cı il mayın 1-də Marneuli rayonundakı Kirəc-Muğanlı kəndində anadan olub. Bakı Dövlət Universitetinin hüquq fakültəsinin axşam şöbəsində oxuyub. 1 nömrəli tikiş fabrikində fəhlə işləyib. Yanvarın 21-də təxminən gündüz saat bir radələrində Qədirli adına xəstəxanaya gələrək yaralılara qan verib. Keçmiş "Olimp" mağazasının qarşısından keçərkən yağı gülləsinə tuş gəlib...

Bundan əlavə, həmin günlərdə erməni terroru Borçalının Qaçağan kəndinə də gəlib çatmışdı. Kənd yoluna basdırılmış minaya düşən yük avtomobilində sovxoz işinə gedən fəhlələrdən 6 nəfəri həlak olmuşdu. Bütün bunlar, təbii ki, Qanlı Yanvar günlərində həlak olan borçalıların heç də tam siyahısı deyil. Heç məqsədimiz də bu deyil. Sadəcə, həmin günlərdə şəhid olan bütün qardaş-bacılarımızı, o cümlədən Azərbaycanın sərhədlərindən kənardakı şəhid soydaşlarımızı xatırlamağı özümüzə borc bildik.

Təəssüf ki, sonradan Bakı faciəsi Gürcüstanda da təkrar olundu. 1990-cı il aprelin 9-da sovet hökuməti Tbilisiyə də qoşun yeritdi və orada da günahsız qurbanlar verildi.

Artıq o vaxtdan 29 il keçir. 29 ildir ki, xalqımız, dünyaya səpələnmiş soydaşlarımız hər il 20 Yanvar günü vətənpərvərlərimizin uyuduqları Şəhidlər xiyabanını ziyarət edirlər. Şəhidlərimizin xatirəsi hər il yanvarın 20-də Azərbaycanla bərabər dost və qardaş ölkələrdə, o cümlədən, Gürcüstanda ehtiramla yad edilir. Hesab edirik ki, verdiyimiz günahsız qurbanlar bizi – Azərbaycan və gürcü xalqlarını bir-birinə daha sıx tellərlə bağlayır...



***Paşa ƏMİRCANOV, "Xalq qəzeti"***

# Yaşayış məhəllələri yeniləşir və gözəlləşir

***❐ Prezident İlham Əliyevin Nazirlər Kabinetinin ötən ilin sosial-iqtisadi yekunları və yeni ildə qarşıda duran vəzifələrə həsr olunmuş iclasındakı nitqində irəli sürülmüş tələblər paytaxtın Nəsimi rayonu 1 saylı Sahə İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyində keçirilən toplantıda geniş müzakirə edilmişdir.***

Yığıncaqda inzibati ərazi dairəsi üzrə nümayəndənin müavini Eldəniz Cabbarov ötən il ərazidə aparılmış genişmiqyaslı quruculuq işləri, nəzərdə tutulmuş önəmli tədbirlərin həyata keçirilməsinin gedişi barədə ətraflı məlumat verərək bildirmişdir ki, bir sıra küçə və məhəllələrdə çoxsaylı yüksəkmərtəbəli binaların fasadları, dəhlizləri, damları, zirzəmiləri əsaslı təmir olunmuşdur. "Abad həyət" və "Bizim həyət" layihələri çərçivəsində nümunəvi məhəllələr yaradılmış, geniş yaşıllıq zolaqları salınmışdır. Əhalinin asudə vaxtlarının səmərəli keçirilməsi və istirahəti üçün bir sıra parklarda və binaların həyətlərində yeni oturacaqlar, söhbətgahlar qoyulmuş, uşaqlar üçün əyləncəli idman qurğuları quraşdırılmışdır.



Mir Cəlal, Hüseyn Seyidzadə, Asif Məhərrəmov, M.Kazımovski, Rəşid Məmmədov küçələri boyunca aparılmış təmir-bərpa, abadlıq və yaşıllaşdırma tədbirləri, kommunikasiyaların yeniləşdirilməsi paytaxtın iri yaşayış massivlərindən olan mikrorayonların simasını əsaslı surətdə gözəlləşdirmiş, sakinlərn rahatlığını təmin etmişdir. Xidmət təşkilatları ərazinin fasiləsiz su, elektrik enerjisi, qaz, istilik təchizatını nəzarətdə saxlamış, zəruri və operativ tədbirləri vaxtında yerinə yetirmişdir.

Nəsimi Rayon İcra Hakimiyyətinin başçısı Asif Əsgərov bildirmişdir ki, Prezident İlham Əliyevin həyata keçirdiyi yeni inkişaf konsepsiyasında ölkə paytaxtının və regionların sosial-iqtisadi inkişafı, şəhər və rayonların abadlaşdırılması, yeni infrastruktur layihələrinin davamlı olaraq icra edilməsi əsas istiqamətlər kimi qarşıya qoyulmuşdur. Bakı şəhərində müasir infrastrukturun yaradılması sahəsində aparılan çoxşaxəli işlərin, əhalinin mədəni-mənəvi həyat səviyyəsinin yüksəldilməsinə göstərilən diqqət və qayğının nəticəsidir ki, bu gün paytaxtımız dünyanın ən gözəl şəhərlərindən birinə çevrilmişdir.

Natiq ötən il Nəsimi rayonunda görülən işlər və həyata keçirilmiş sosialyönümlü tədbirlər barədə də ətrtaflı məlumat vermiş, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə ərazidə gerçəkləşdirilən "Bizim həyət" layihəsinin önəmini vurğulamışdır. Asif Əsgərov bildirmişdir ki, ölkə başçısının tapşırıqlarına əsasən, rayon ərazisində aparılan abadlıq-quruculuq işləri bu il də uğurla davam etdiriləcək, qarşıya qoyulan yeni vəzifələrin vaxtında yerinə yetirilməsi təmin ediləcəkdir.



Sakinlər adından çıxış edənlər ərazidə görülən işlərə görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban Əliyevaya minnətdarlıqlarını bildirmiş, arzu və təkliflərini söyləmişlər. Sonda sakinlərin sualları cavablandırılmışdır.

***R.TAHİR, "Xalq qəzeti"***

# "Ah, bu uzun sevda yolu"

***❐ Azərbaycan Akademik Milli Dram Teatrının Abbas Mirzə Şərifzadə adına səhnəsində görkəmli şair Mikayıl Müşfiqin xatirəsinə ithaf edilmiş "Ah, bu uzun sevda yolu" tamaşası təqdim ediləcək.***

Yanvarın 19-da göstəriləcək tamaşa dramaturq Əli Əmirlinin eyniadlı əsəri əsasında hazırlanmış ikihissəli dramdır.

Tamaşanın bədii rəhbəri və quruluşçu rejissoru Akademik Milli Dram Teatrının bədii rəhbəri, Xalq artisti Azər Paşa Nemətov, rejissoru Anar Sadıqov, rəssamı Əməkdar mədəniyyət işçisi İlham Elxanoğlu, bəstəkarı Xalq artisti Siyavuş Kərimidir.

Mədəniyyət Nazirliyinin sifarişi ilə hazırlanan səhnə əsərində rolları Xalq artisti Hacı



İsmayılov, Əməkdar artistlər Anar Heybətov, Münəvvər Əliyeva, Ayşad Məmmədov və başqaları ifa edəcəklər.

***M.MÜKƏRRƏMOĞLU, "Xalq qəzeti"***

# DSX: Düşmən Qazax rayonunun Kəmərli kəndi ərazisində mühəndis işləri aparan ekskavatoru atəşə tutub

***❐ Qazax və Ağstafa rayonları ərazisində düşmənlə təmas xəttində xidməti-döyüş fəaliyyətini həyata keçirən sərhəd döyüş məntəqələri istiqamətində Ermənistan silahlı qüvvələri tərəfindən atəşkəs rejiminin pozulması halları davam edir.***

Dövlət Sərhəd Xidmətinin (DSX) mətbuat mərkəzindən bildiriblər ki, yanvarın 12-də saat 11:20 və 11:40 radələrində Ermənistan silahlı qüvvələrinin bölmələrindən Qazax rayonunun Kəmərli kəndi yaxınlığındakı



sərhəd döyüş məntəqəsinin arxasında mühəndis işləri aparan, mülki şəxs tərəfindən idarə olunan ekskavator atəşə tutulub. Ekskavatora doğru 7,62 millimetr çaplı "PK" pulemyotundan və 12,7 mm çaplı "DŞK" pulemyotundan açılan atəş nəticəsində 6 güllə ekskavatorun çalovuna və başqa hissələrinə dəyib, kabinənin şüşəsi sındırılıb.

Hadisə nəticəsində xəsarət alan olmayıb.

Xatırladaq ki, Ermənistan silahlı qüvvələri yanvarın 6-da da həmin istiqamətdə dövlət sərhəd xəttindən 450 metr məsafədə mühəndis işləri aparan, mülki şəxs tərəfindən idarə olunan ekskavatora atəş açmışdı.

***"Xalq qəzeti"***

***❐ Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun fəaliyyət istiqamətlərindən biri də dünya elmini ölkəmizdə, Azərbaycan elmini dünyada tanıtmaqla yanaşı, "Azərbaycan əcnəbilərin gözü ilə" layihəsi çərçivəsində xarici ölkə gənclərini xalqımızın tarixi və mədəniyyəti, dövlətimizin iqtisadi və elmi nailiyyətləri barədə məlumatlandırmaqla azərbaycançılıq məfkurəsi zəminində milli-mənəvi dəyərlərimizi təbliğ etməkdən ibarətdir.***

# Qazaxıstanlı tələbələr Bilik Fondunda

Yanvarın 11-də Qlobal Karyera İnstitutunun dəvəti ilə Qazaxıstan Respublikasının Almatı Menecment Universitetinin ölkəmizə səfərə gələn bir qrup tələbəsi Bilik Fondunun qonağı olub.

İnstitutun direktoru Orxan Həsənoğlu Qazaxıstan universitetinin nümayəndə heyətini təqdim etdikdən, tələbələrin ölkəmizə səfərinin məqsədləri, nəzərdə tutulmuş tədbirlər barədə məlumat verdikdən sonra qonaqlar Bilik Fondunun fəaliyyəti ilə tanış olublar.

Fondun icraçı direktoru Oktay Səmədov rəhbərlik etdiyi qurumun yaranma tarixi, struktur bölmələri, maarifləndirmə proqramları üzrə həyata keçirdiyi layihələr, bölgələrdə fəaliyyət göstərən Bilik evlərində yerli gənclərin cəlb olunduğu təlim kursları, dərnək və klublar, fondun beynəlxalq əlaqələri barədə söhbət açıb.

Almatı Menecment Universitetindən ölkəmizə ilk dəfə səfər edən qazaxıstanlı gənclərə Azərbaycanın iqtisadi həyatı, turizm sahəsində qazanılmış uğurlar, müvafiq ixtisaslar üzrə kadr hazırlığı istiqamətində əldə edilmiş nailiyyətlər barədə ətraflı məlumat verilib, səfər başa çatdıqdan sonra ölkəmizlə bağlı təəssüratlarını yeni dostları ilə bölüşmək məqsədilə "Azərbaycanla ilk tanışlığım" mövzusunda esse müsabiqəsinə qatılmaq təklif olunub.



Nümayəndə heyətinə rəhbərlik edən universitet rəhbərliyinin təmsilçisi Dilmurad Sabirov Bilik Fondunun rəhbərliyinə və əməkdaşlarına maraqlı və məzmunlu görüşə görə minnətdarlığını bildirib, Almatı Menecment Universitetinin Bilik Fondu ilə gələcək əməkdaşlığının faydalı olacağına əminliyini ifadə edib.

Qazaxıstanlı tələbələrin fond əməkdaşları ilə dialoq şəklində baş tutmuş görüşündə hər iki ölkədə turizm və menecment ixtisasları üzrə təhsil alan və gələcəkdə orta və kiçik sahibkarlığın inkişafında imzası ola biləcək gənclər arasında işgüzar əlaqələrin yaranması, dostluq münasibətlərinin möhkəmləndirilməsi istiqamətində birgə tədbirlərin keçirilməsi, tələbə elmi konfransları və seminarlarının təşkili, ümumilikdə isə tələbələr arasında "bilik körpüsü"nün yaradılması ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Görüşün sonunda qonaqlara Bilik Fondunun kitab hədiyyələri təqdim olunub.

***"Xalq qəzeti"***

# Qafqazda sabitliyi istəməyənlər ara qarışdırmaqla məşğuldurlar



## Yaxud, Mariya Zaxarovaya bir neçə sual

❒ ***Regiondakı vəziyyət belədir: Dünya dövlətləri Azərbaycanın hərtərəfli inkişafını və ölkəmizdə həyata keçirilən islahatları yüksək qiymətləndirərək, rəsmi Bakı ilə əməkdaşlığa xüsusi önəm verirlər. Cinayətkar qruplaşmaların əlində əsir-yesir olmuş Ermənistanda isə nə islahatdan əsər-əlamət var, nə də hansısa inkişafdan. Yaxud, Azərbaycan və Rusiya prezidentləri təkcə ötən il altı dəfə görüşərək çoxsaylı razılıqlara nail olsalar da, Ermənistanın köhnə rəhbərləri kimi indiki baş naziri də nəinki Moskvadan, eləcə də bütün xarici səfərlərindən tamamilə əliboş qayıdır. Bu isə o deməkdir ki, Azərbaycanın beynəlxalq nüfuzu artdıqca, Ermənistan tamamilə heç kəsə lazım olmayan bir əyalətə çevrilir.***

Bu ağrıdıcı və sarsıdıcı vəziyyətlə barışa bilməyən erməni lobbisinin müəyyən simaları Azərbaycanın ən etibarlı tərəfdaşlarından olan Rusiya Federasiyasının da bəzi söz sahiblərinin “ saqqızını oğurlaya biliblər”. “Saqqızı oğurlananlar” Rusiyanın dövlət siyasətində əsas fiqurlar olmasa da, Bakı ilə sıx əməkdaşlıq edən bir ölkənin adından verilən bəyanatlarla ürək bulandırırlar. Məsələn, şimal qonşumuzun Xarici İşlər Nazirliyinin mətbuat katibi Mariya Zaxarovanın erməni əsilli Rusiya vətəndaşlarının Azərbaycan Respublikasının ərazisinə buraxılmaması ilə bağlı verdiyi açıqlama obyektivlikdən uzaq, kimlərinsə xahişi ilə dilə gətirilmiş cəfəngiyyatdır.

Ölkə ictimaiyyətinin nümayəndələri həmin məsələyə münasibət bildirərkən çoxsaylı həqiqətləri yada salaraq Mariya Zaxarovaya xatırladırlar ki, bu qəbildən olan saxta “açıqlamalar” Moskva – Bakı dostluq və tərəfdaşlıq münasibətlərinin ruhuna ziddir və əməkdaşlığımıza xələl gətirə bilər.

**Fəlsəfə elmləri doktoru, professor Telman Hacıyev** isə rusiyalı “diplomata” bəzi sualların ünvanlanmasını arzulayır:

***Birinci:*** Bu gün Bakıda 30 mindən çox erməni əsilli sakinin bilavasitə ölkəmizin vətəndaşı qismində, heç bir problem olmadan yaşadığını xatırladaraq, xanım Zaxarovadan soruşuram: Bəs Ermənistanda neçə nəfər azərbaycanlı yaşayır? Orada nəinki azərbaycanlı, heç rus vətəndaş da qalmayıb.

***İkinci:*** Ermənistanda erməni əsilli uşaqlara rusdilli məktəblərdə təhsil almaq məhdudiyyəti qoyulduğu halda, Azərbaycanda 340-dan çox rus dilində tədris müəssisəsi var. Bəs həmin işğalçı ölkədəki rusdilli məktəbləri saymaq üçün neçə barmaq kifayət edər?

***Üçüncü:*** Azərbaycanın işğal edilmiş ərazilərində doğulub-böyümüş, sonradan Rusiya vətəndaşlığına qəbul edilmiş azərbaycanlılar öz ata-babasının məzarını ziyarət edərkən



ermənilər tərəfindən həbs edilərək, uzun illərdir ki, işgəncələrə məruz qalırlar. Bəs Azərbaycanda hansı Rusiya vətəndaşının burnu qanayıb?

***Dördüncü:*** Azərbaycanda keçirilən beynəlxalq tədbirlərdə, idman yarışlarında, mədəni tədbirlərdə nəinki erməni əsilli Rusiya vətəndaşları, hətta Ermənistan vətəndaşları da iştirak edib və onların heç bir problemi olmayıb. Bir “diplomat” kimi bu faktları bilməməyinizə necə haqq qazandıra bilərsiniz?

***Beşinci:*** Siz BMT Təhlükəsizlik Şurasının Azərbaycanın işğal olunmuş ərazilərindən işğalçı qüvvələrin dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını və bu ərazilərdən zorla qovulmuş insanların öz doğma yurd-yuvalarına geri qayıtmasını nəzərdə tutan 4 qətnaməyə səs vermiş ölkənin diplomatısınız. Bu, beynəlxalq əhəmiyyətli sənədlərin icrasını əngəlləyən işğalçı dövlətə münasibətinizi necə anlamaq olar?

***Hazırladı:***
***İttifaq MİRZƏBƏYLİ,***
***“Xalq qəzeti”***

## Mariya Zaxarova əsassız bəyanatı ilə strateji münasibətləri zədələyə bilər

❒ **Rusiya Xarici İşlər Nazirliyinin sözçüsü Mariya Zaxarova Moskvada keçirilən ənənəvi brifinqdə Azərbaycanın ünvanına əsassız fikirlər səsləndirib. Bildirib ki, erməni mənşəli Rusiya vətəndaşları Azərbaycana buraxılmır və xanım diplomat bunu Rusiya vətəndaşlarının hüquqlarının pozulması kimi qiymətləndirib.**

Biz bilmirik xanım Zaxarova bu məlumatı hardan alıb. Ancaq hörmətli diplomata bir daha xatırlatmaq istərdik ki, Rusiya və Azərbaycanın münasibətləri strateji müttəfiqlik səviyyəsindədir, hər iki ölkənin hörmətli prezidentləri əməkdaşlığı bu dərəcəyə çatdırmaq üçün böyük və çətin bir yol keçiblər. İndi yoxlanılmamış və tamamilə həqiqətdən uzaq bir məlumatla bu münasibətləri korlamaqdan çəkinmək lazımdır.

Əslində, xanım Zaxarovanın özü də yaxşı bilir ki, Azərbaycan dünyada tolerantlığın, multikulturalizm mərkəzi kimi məşhurdur. Bu gün Azərbaycanda bir çox xalqların, o cümlədən, erməni xalqının nümayəndələri sülh və əmin-amanlıq şəraitində birgə yaşayırlar. Erməni əsilli vətəndaşlarımızın sayı 30 mindən çoxdur. Belə olan halda Azərbaycan Rusiyadan gələn beş-üç erməniyə niyə mane olmalıdır?! Bəs xanım diplomat deyə bilərmi Ermənistanda neçə nəfər azərbaycanlı yaşayır? Bəs iki Azərbaycan əsilli Rusiya vətəndaşı Dilqəm Əsgərov və Şahbaz Quliyevin atalarının qəbrini ziyarət etmək üçün Kəlbəcər rayonuna gedərkən ermənilər tərəfindən əsir götürüldüklərindən, üzərlərində qondarma məhkəmə qurulduğundan, hər gün işgəncələrə və məşəqqətlərə məruz qaldıqlarından xanım Zaxarovanın xəbəri yoxdurmu? Əlbəttə, var. Ancaq bu barədə danışmır…

Bir məsələni də onun yadına salaq. Təkcə 2018-ci ildə 880 min Rusiya vətəndaşı Azərbaycanda səfərdə olub. Səfər edənlər arasında erməni əsilli Rusiya vətəndaşları da olub və heç bir problem müşahidə edilməyib. Ona görə də hər bir rəsmi şəxs həqiqətə əsaslanan məlumatları səsləndirməlidir. Yalan məlumatlarla yalnız ikitərəfli strateji münasibətləri zədələmək olar. Yəqin ki, Mariya Zaxarova bunu bilməlidir...

***Kamran RAMAZANLI,***
***qafqazşünas***

**Mehman Hüseynovla bağlı baş verənlərin mahiyyəti bilərəkdən təhrif edilir. Bunu Trend-ə açıqlamasında Milli Məclisin deputatı, ATƏT Parlament Assambleyasının (PA) vitse-prezidenti Azay Quliyev deyib.**



## ATƏT PA-nın vitse-prezidenti Mehman Hüseynovla bağlı hüquq-mühafizə orqanlarına və beynəlxalq təşkilatlara müraciət edib

A.Quliyevin sözlərinə görə, son günlər xarici mətbuatda bloger M.Hüseynovla bağlı gedən yazıları və bəzi beynəlxalq qurumların bəyanatlarını təhlil edərək belə bir qənaətə gəlmək olar ki, bir çox hallarda məsələyə verilən reaksiya adekvat deyil və hiss olunur ki, baş verənlərin mahiyyəti bilərəkdən təhrif edilir. Deputat demişdir: "Bu, ciddi narahatlıq doğurur, eyni zamanda, yerli və beynəlxalq ictimaiyyəti çaşdırır və əsl həqiqətin nədən ibarət olduğu haqqında məlumat əldə etmək imkanını məhdudlaşdırır. Məni narahat edən əsas məqamlardan biri xarici mətbuatda Mehman Hüseynova qarşı yeni cinayət işinin açıldığı və ona daha 7 il həbs cəzası veriləcəyi, bu səbəbdən də onun quru aclıq aksiyasına başladığına görə həyatını itirmək təhlükəsi ilə üz-üzə qaldığı barədə həqiqətə uyğun olmayan məlumatların dərc edilməsidir.

ATƏT PA-nın vitse-prezidenti kimi Mehman Hüseynovla bağlı yaranmış vəziyyət məni ciddi narahat etdiyindən, onun haqqında gedən məlumatların həqiqiliyini araşdırmaq, ona qarşı irəli sürülmüş yeni ittihamın mahiyyətini öyrənmək və onun sağlıq durumu haqqında dəqiq məlumat əldə etmək üçün aidiyyəti qurumlarla məsələni müzakirə etdim və bəzi suallara aydınlıq gətriməyə çalışdım. Belə məlum oldu ki, Mehman Hüseynovla həbsxana məmuru arasında baş vermiş hadisə araşdırılması üçün prokurorluq orqanlarına göndərilib. Baş vermiş insident obyektiv və ədalətli şəkildə araşdırılır və proses yekunlaşdıqdan sonra onun nəticələri barədə ictimaiyyətə ətraflı məlumat veriləcək".

M.Hüseynovun səhhətinin ağır və ya az qala ölümcül vəziyyətdə olması haqqında bəzi beynəlxalq təşkilatların bəyanatlarında və xarici mediada gedən yazılara gəldikdə, A.Quliyev bildirib ki, bu məlumatların da heç birinin əsası yoxdur: "Rəsmi açıqlamalardan da bəlli olur ki, Mehman Hüseynov aclıq aksiyası keçirmir, onun səhhəti normaldır və ona qarşı hər hansı ayrı-seçkiliyə, təzyiqə və ya qanundan kənar hərəkətlərə yol verilmir. Bu faktlar onu həbsxanada ziyarət edən Azərbaycan ombudsmanının nümayəndəsinin, hüquq müdafiə təşkilatlarının, xarici ölkə səfirliklərinin, eyni zamanda, Mehman Hüseynovun özünün yaydığı açıqlamalarda da öz əksini tapıb".

ATƏT PA-nın vitse-prezidenti ümid etdiyini bildirib ki, M.Hüseynovun hüquqları qanunvericilik çərçivəsində tam olaraq qorunacaq, eyni zamanda bu mövzu ətrafında bundan sonra siyasi manipulyasiyalara yol verilməyəcək: "Sonda isə hüquq-mühafizə orqanlarını Mehman Hüseynovla bağlı baş vermiş insidenti obyektiv və ədalətli araşdırmağa, beynəlxalq təşkilatları, səfirlikləri və xarici medianı isə məsələnin mahiyyətini tam bilmədən ona tələsik və birtərəfli reaksiya verməməyə və araşdırmaların nəticələrini gözləməyə çağırıram".

## Ermənistan atəşkəsi pozmaqda davam edir

❒ ***Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 26 dəfə pozub.***

Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildiriblər ki, Ermənistan Respublikasının Berd rayonunun Mosesqex, Çinari kəndlərində yerləşən mövqelərdən Tovuz rayonunun Ağdam, Ağbulaq, Muncuqlu kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Çiləbürt, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qobu Dilağarda, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam, Xocavənd və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə məruz qalıb.

***AZƏRTAC***



## Yaxın Şərqdə yeni strateji oyunlar: Con Boltonun Türkiyə səfərindən sonrakı qeyri-müəyyənlik

❒ **Ekspertlər Suriya probleminin həllində vacib bir mərhələnin başladığı qənaətindədirlər. Proseslər bir neçə il öncədən xeyli fərqli məzmun kəsb edib. İndi meydanda Rusiya aparıcı rol oynayır. İran və Türkiyə ciddi fəallıq göstərirlər. İran Suriyada İsrail və ABŞ üçün başağrısına çevrilib. Bunların fonunda türk ordusunun Suriyanın şərqində YPG/PKK-ya qarşı yeni hərbi əməliyyata hazırlaşması əhəmiyyətli geosiyasi hərbi addım kimi qiymətləndirilir. Amerika Prezidenti D.Tramp Suriyadan qoşunlarını çıxarmaqla bağlı bəyanat verib. İndi daha çox bu prosesin gedişatı müzakirə olunur. C.Boltonun Türkiyəyə səfəri həmin aspektdə ekspertləri maraqlandırırdı. ABŞ Prezidentinin müşaviri Ankaraya gəldi və... tez də qayıtdı. Bu hadisənin səbəblərinin geosiyasi təhlili üzərində geniş dayanaq.**

### İsraildən Türkiyəyə: Bolton niyə bu marşrutu seçdi?

Amerika Prezidentinin milli təhlükəsizlik üzrə müşavirinin səfərləri həmişə mühüm hadisə hesab olunur. Con Bolton Rusiya və Cənubi Qafqaza gələndə, ekspertlər bunun arxasında ciddi geosiyasi maraqların dayandığını ifadə edib müxtəlif versiyalar irəli sürdü, əsas mövzunun isə İran olduğuna işarə etdilər. Bu təxminlər özünü doğrultdu. Aydın oldu ki, Amerika rəhbərliyini demokratiya, insan haqları, ədalət, beynəlxalq hüquq normalarına əməl etmək maraqlandırmır.

Con Boltonun İsrail və Türkiyəyə səfəri haqqında da eyni məntiqlə bəhs etmək olar. Maraqlıdır ki, türk-müsəlman aləmi ilə dost olmaq istəməyən bir sıra məhdud düşüncəli dairələr bu məqamdan az qala strateji geosiyasi nəticələr çıxardılar. Türkiyəyə münasibətdəki sərsəm və mənasız ritorikanı bir kənara qoyuruq, ekspert kimi ifadə etdikləri fikirlərin az da olsa geosiyasi əhəmiyyəti yoxdur. Bu alçaqlığı daha çox erməni şovinist dairələrinə yaxın olan media qurumları edir. Ancaq onlar da son zamanlar Türkiyə-Rusiya münasibətlərinin yüksəlişi səbəbindən çox dərinə gedə bilmirlər. Bununla belə, prosesin geosiyasi reallığını təhrif edirlər.

Əslində isə C.Bolton Ankarada elə bir dərs aldı ki, uzun müddət çətin ki, unuda bilsin.

İlk növbədə, C.Boltonun niyə İsrailə səfər etməsi məsələsi maraqlıdır. Bu o deməkdir ki, Vaşinqton Yaxın Şərqə Təl-Əvivin gözü ilə baxmaqda davam edir. Amerika antimüsəlman, antifələstin, antiiran mövqeyində dayanır. Belə ilkin şərtlərlə regiona gələn amerikalı yüksək vəzifəli şəxs hansı səmərəli təklif verə bilər? Faktiki olaraq, heç bir. Səfər də bunu tam sübut etdi.

C.Bolton İsraildə regionda sabitliyin təminini deyil, bütövlükdə situasiyanı İsrailin xeyrinə necə qoruyub saxlamağın yollarını müzakirə edib. Burada isə müsəlman ölkələri üçün hazırlanmış və daha çox etnik və məzhəb mənsubluğuna əsaslanan terror qruplarına dəstək ön plandadır. Bu üsul kənarda olanlara insan itkisi vermədən ümumən vəziyyəti öz xeyrinə idarə etməyə imkan verir. İtirdikləri puldur, lakin onu da narkoticarət və silah satışı ilə terrorçulardan geri alırlar. Bu səbəbdən C.Boltonun hələ Türkiyəyə gəlmədən “kürdləri qətl etməyin” kimi cəfəng fikir səsləndirməsinin arxasında nələrin dayandığı yaxşı məlumdur.

Məsələ ondan ibarətdir ki, kürdləri daha çox kənardakı qüvvələr qətlə sürükləyirlər. Lakin söhbət bütövlükdə kürd xalqından gedə bilməz. Kürdlər mərd və qəhrəman xalq kimi həmişə vətəndaşı olduqları dövlət və cəmiyyətlərə sədaqətli olublar. İndi də belədir. Kənar qüvvələr müəyyən radikal düşüncəli gəncləri yoldan çıxarmaqla cinayətlərə təhrik edib, bunu bütün xalqın adından təqdim etməyə çalışırlar. C.Bolton faktiki olaraq bunu Ankarada Türkiyə Prezidentinin müşaviri İbrahim Kalınla söhbətində təsdiq edib. O, bütün kürdləri deyil, ancaq YPG-ni nəzərdə tutduğunu deyib. Lakin belə etirafları məhdud dairələrdə etməklə yenə də ictimaiyyətə yalan danışırlar.

Ancaq Ankara C.Boltondan çox informasiyalar ala bildi. Məlum oldu ki, Vaşinqton Türkiyənin müstəqil Yaxın Şərq siyasətindən narahatdır. Donald Trampın komandasını hər şey maraqlandırır. Ankara Moskva ilə nələri danışacaq? Fəratın şərq sahilinə daxil olduqda, hansı tədbirləri görəcək? Əgər Vaşinqton nələrisə qadağan etsə, Türkiyə ona əməl edəcəkmi? Və əsas olaraq Amerika Suriyanın şimalından çəkilmə prosesini uzatsa, Ankara müstəqil davranacaqmı?

### “Müttəfiq”in gizli planı: yeni terror qrupu və regional təhlükəsizliyə yaranan risklər

Bu kimi sualları türk ekspertlər danışıqlarda ifadə edilən fikirlər əsasında analiz edirlər. Onlar belə qənaətə gəlirlər ki, Con Bolton Ankaradan əliboş və cavabını tam olaraq almış durumda ayrılıb. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan isə C.Boltonla görüşməyi lazım bilməyib.

Bunlar geosiyasi aspektdə nəyi ifadə edir? Belə görünür ki, ABŞ Yaxın Şərq siyasətində ciddi heç bir dəyişiklik etmək fikrində deyil. Əksinə, özünü zahirən bir qədər kənara çəkilən kimi göstərib, daha dərindən vəziyyəti qarışdırmaqda davam edəcək. Amerika regiondakı əsas müttəfiqi ilə birlikdə minimum zərərlə maksimum fayda prinsipi üzrə vəziyyəti öz marağına uyğun şəklə salmaqda israrlıdır. Bu o deməkdir ki, Suriya məsələsində yeni strateji oyunlar başlayır. Bu mərhələdə daha çox Türkiyə və İranı intriqaların, silahlı toqquşmaların alovuna atmaq niyyəti mövcuddur.

Bütün bunları Ankarada və Tehranda çox gözəl bilirlər. Deməli, 2019-cu ildə Yaxın Şərq məsələsində Rusiya, İran və Türkiyənin daha fəal əməkdaşlıq etmək şanslarının çox olduğunu etiraf etmək gərəkdir. C.Boltonun da tez-tez türk heyətindən R.T.Ərdoğanın Rusiyada V.Putinlə hansı məsələləri müzakirə edəcəyini soruşması təsadüfi deyil. Bunun fonunda amerikalı heyətin həm də “İran Suriyada güclənməməlidir” deməsi diqqəti çəkib. İbrahim Kalının amerikalılar çəkildikdən sonra Vaşinqtonun YPG ilə bağlı planlarının nədən ibarət olacağı barədə sualına cavab kimi C.Boltonun yenə də İran məsələsini ortaya atması çox məqamlardan xəbər verir.

Belə başa düşülür ki, Vaşinqton İŞİD problemini ortaya atan başlıca qüvvədir. İndi bu terror təşkilatının məhv edildiyini bəyan etməsi, ancaq meydana yeni terror təşkilatı çıxarmağa edilən işarədir. Əgər “əl-Qaidə” Əfqanıstan məsələsini “həll etmək”, İŞİD İraq, İran və regionun digər müsəlman dövlətləri üçün bəla olmaq üçün yaradılmışdısa, YPG/PYD bu məqsədlərin inkişaf etdirilməsi üçündür. Bunun üçün hədəfdə Türkiyə və İranın olacağına şübhə yoxdur. Deməli, C.Bolton, əslində, Türkiyəyə “sizin üçün yeni terror qruplaşması hazırlamışıq” deməyə gəlmişdi. Ankara da konkret dedi: “Hodri meydan”! (Yəni biz varıq, hazırıq, çıx meydana!).

ABŞ Prezidentinin milli təhlükəsizlik məsələləri üzrə müşavirinin Ankaranı vaxtından tez tərk etməsinin səbəbi, bizcə, yuxarıdakı fikirlərdən aydın olur. C.Bolton Cənubi Qafqazda olduğu kimi, Yaxın Şərqdə də istədiyini ala bilmədi. Konkret olaraq Türkiyədə amerikalılara anlatdılar ki, artıq onların ssenariləri üzrə nə İranla, nə Suriya ilə, nə də kürdlərlə düşmən olmaq fikrində olan yoxdur. C.Bolton Ankaranı tərk edəndən bir qədər sonra Türkiyə İrandan yanacaq idxalını bərpa edib.

C.Boltona açıq şəkildə bildirilib ki, Suriyaya hərbi müdaxilə üçün Türkiyə kimsədən izn almaq fikrində deyil. Lakin Ankara atacağı addımlar barədə müttəfiqlərini xəbərdar edir. Rusiya və ABŞ-la informasiya mübadiləsi də bunun üçündür.

Ekspertlər C.Boltonun Türkiyəyə səfərindən sonra Suriya məsələsi ətrafında geosiyasi situasiyanın inkişaf istiqaməti ilə bağlı proqnozlar verirlər. Vaşinqtonun vəziyyəti daha da radikallaşdıracağını gözləmək olar. Çünki artıq Suriyada nizamlama prosesində nə Vaşinqton, nə də Təl-Əviv aparıcı deyil. Təşəbbüs Rusiyadadır. Regionda isə ən güclü oyunçu Türkiyədir. Bu iki qüvvə Suriyada və daha sonra bütövlükdə Yaxın Şərqdə geosiyasi dinamikanı Amerika üçün arzuolunmaz bir ritmə gətirə bilər. Bu prosesdə İsrailin maraqları ödənməyə, bunun fonunda isə İranın mövqeyi güclənə bilər.

Həmin gedişatın fonunda Qərbin indiyə qədər aktiv istifadə etdiyi terror qrupları yaradıb, istifadə edib, sonra onları yeniləri ilə əvəz etmək üsulu da ciddi zərər görmüş olar. Bununla Yaxın Şərqin müasir tarixində əhəmiyyətli bir dəyişiklik ola bilər. Çətin ki, Amerika və onun regiondakı müttəfiqi proseslərin bu istiqamətdə getməsini kənardan sadəcə müşahidə etsinlər. Deməli, qarşıda daha mürəkkəb və çətin geosiyasi çarpışma durur. C.Boltonun Yaxın Şərqə səfərinin bəlkə də real nəticəsi bundan ibarətdir. Yəni o, hansısa məsələni həll edə bilmədi, əksinə, yeni intriqalara apara biləcək proseslərin toxumunu səpdi.

Doğrudur, Ankarada müəyyən məsələlərə dair ortaq fikirlər də formalaşıb. Məsələn, türk və amerikan heyətləri arasında müzakirələrin genişləndirilməsi və ABŞ-ın Suriyadan çəkilməsinin konkret detallarının aydınlaşdırılması bu qəbildəndir. Lakin bu kimi “razılaşmalar” əsas məsələlər üzrə fikir ayrılığının fonunda xırda görünür. Bu mənada Con Boltonun səfərini uğurlu saymaq çox çətindir.

***Newtimes.az***

# “Yaşıl dəhliz”dən istifadə ilə bağlı görüş




**❒ *Dövlət Gömrük Komitəsində xarici ticarət iştirakçılarının “Yaşıl dəhliz” buraxılış sistemindən daimi istifadə hüququnu əldə etməsi, həmin hüququn dayandırılması, ləğvi və bərpası qaydası ilə bağlı görüş təşkil olunub.***

Tədbirdə Dövlət Gömrük Komitəsi sədrinin müavinləri, baş idarə rəisləri, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin, Dünya Bankının, Azərbaycanda Amerika Ticarət Palatasının nümayəndələri və sahibkarlar iştirak ediblər.

Görüşün əsas məqsədi “Yaşıl dəhliz” buraxılış sistemindən daimi istifadə hüququnun əldə edilməsinə dair müraciət formasının doldurulması qaydası barədə biznes subyektlərini bilgiləndirmək olub.

Bununla bağlı çıxış edən Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini, gömrük xidməti general-mayoru İsmayil Hüseynov bildirib ki, Azərbaycan Prezidenti İlham Əliyevin 21 dekabr 2018-ci il tarixli, 427 saylı fərmanına əsasən “Xarici ticarət iştirakçılarının “Yaşıl dəhliz” buraxılış sistemindən daimi istifadə hüququnu əldə etməsi, həmin hüququn dayandırılması, ləğvi və bərpası Qaydası” təsdiq edilib. Bu il fevralın 1-dən “Yaşıl dəhliz” buraxılış sistemi tətbiq ediləcək.

Diqqətə çatdırılıb ki, bu addımda məqsəd idxal-ixrac əməliyyatlarında qanunvericiliyə riayət edən xarici ticarət iştirakçıları üçün daha əlverişli şərait yaratmaq, gömrük sərhədindən mal dövriyyəsinin sürətləndirilməsini təmin etmək, xarici ticarət iştirakçılarında könüllü riayət mədəniyyətini formalaşdırmaq, risk qiymətləndirilməsi əsasında gömrük nəzarəti formalarını tətbiq etmək, gömrük nəzarətini daha çevik və şəffaf həyata keçirmək, eləcə də idxal-ixrac əməliyyatlarında məmur-sahibkar münasibətlərini müasir idarəçilik prinsipləri əsasında qurmaqla beynəlxalq ticarəti asanlaşdırmaqdır.

İsmayıl Hüseynov vurğulayıb ki, yeni sistemin tətbiqi gömrük orqanları ilə münasibətdə sahibkarlar arasında könüllü riayət, qarşılıqlı etimad prinsiplərinin formalaşmasına şərait yaradacaq, bu da ölkənin ixrac potensialının, xarici ticarət dövriyyəsinin və iqtisadi qüdrətinin artmasında mühüm rol oynayacaq.

Sonra DGK Gömrük Nəzarətinin Təşkili və Ticarətin Asanlaşdırılması Baş İdarəsi xarici ticarət iştirakçıları ilə iş şöbəsinin rəisi Mahmud Nuriyev “Yaşıl dəhliz” buraxılış sistemindən daimi istifadə hüququnun əldə edilməsi və ləğvi, sistemdən istifadə üçün müraciət formasının hazırlanması və digər prosedurlar barədə təqdimatla çıxış edib.

Tədbirdə “Yaşıl dəhliz” buraxılış sistemi əsasında mal və nəqliyyat vasitələrinin rəsmiləşdirilməsinin və onlara gömrük nəzarətinin müasir tələblər səviyyəsində təşkili ilə bağlı maarifləndirici videoçarxlar da nümayiş etdirilib.

Sonda sahibkarların sualları cavablandırılıb, onlara “Yaşıl dəhliz” buraxılış sistemindən daimi istifadə hüququnun əldə edilməsi, həmin hüququn dayandırılması, ləğvi və bərpası qaydasına dair maarifləndirici materiallar paylanılıb.

***“Xalq qəzeti”***

# Yarım əsr səhnədə

**❒ Azərbaycanın görkəmili teatr və kino aktyoru, Xalq artisti, “Şöhrət” ordenli gülüş ustası İlham Namiq Kamalın (Əhmədov) 70 yaşı tamam olur.**





Ömrünün yarım əsrdən çoxunu teatr sənətinə bağlayan İlham Əhmədov 1949-cu ildə Bakıda doğulub. 1966-1970-ci illərdə Azərbaycan Dövlət İncəsənət İnstitutunun dram-kino aktyorluğu fakültəsində təhsil alıb. Tələbə ikən Molyerin “Jorj Danden” komediyasında baş qəhrəmanın rolunu uğurla ifa etdiyindən onu institutun tədris teatrının aktyor truppasına qəbul ediblər.

1972-ci ildə Akademik Milli Dram Teatrına dəvət alan aktyor bu səhnədə Müsyö Jordan (“Müsyö Jordan və Dərviş Məstəli şah”), Sarı Qarayev (“Varlı qadın”), Zaman müəllim (“Bu dünyanın adamları”), Gülən adam (“Hərənin öz payı”), Kişi (“Mənim ərim dəlidir”), doktor Qaratay (“Afət”) kimi rollarda çıxış edib. 1989-cu ildən Dövlət Gənclər Teatrında çalışan İlham Əhmədov burada Məsuliyyətsiz (“Çarəsiz sərnişinlər”), Dadaşbala (“Dadaşbala əməliyyatı”), Sultanqulu (“Sultanqulu körpüsü”), Kələntər (“Dağ tikirik”), Daniel (“Arvadımın qatili”), Kazbek (“Arvadımın əri özüməm”) kimi baş rolların ifaçısı olub.

İlham Əhmədov Azərbaycan Dövlət Musiqili Teatrında E.Mansurov və G.Xuqayevin “Sevgilimin anası” (Albadam), F.Qarayev və E. de Flipponun ”Filumeno Marturano” (Dominisko Soriano), O.Rəcəbov və A.Babayevin “Şeytanın yubileyi” (Meydan), R.Mirişli və M.Haqverdiyevin “Qısqanc ürəklər” (polkovnik Mikayıl), F.Sücəddinov və T.Vəliyevanın “Mən dəyərəm min cavana” (İbad İbadov), M.Məmmədovun “Matəm marşı və ya gözünüz aydın” (Əhmədağa) tamaşalarında özünəməxsus rollar yaradıb. Peşəkar aktyor həm də “Şeytanın yubileyi” və “Amerikalı kürəkən” tamaşalarına quruluş verib. Bir müddət özünün yaratdığı “İlham” Miniatür Teatrının bədii rəhbəri olub.

“Azərbaycanfilm”in istehsal etdiyi ekran əsərlərində, onlarca televiziya verilişində satirik obrazlarda, “Mozalan” satirik kinojurnalında yüzə yaxın bədii süjetdə uğurla çıxış edən aktyor tamaşaçıların sevimlisinə çevrilib.

O, 1997-ci ildən pedaqoji fəaliyyətlə də məşğuldur. Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində kafedra müdiri, professordur. 1982-ci ildə Azərbaycan Respublikasının Əməkdar artisti, 2002-ci ildə Xalq artisti fəxri adları ilə təltif olunub. 2000-ci ildə “Qızıl dərviş” mükafatı alıb, 2013-cü ildə “Şöhrət” ordeninə layiq görülüb. 2012-ci ildən Prezident təqaüdçüsüdür.

***M.MÜKƏRRƏMOĞLU,***
***“Xalq qəzeti”***

# “Talassemiyasız həyat naminə” 3-cü regional simpozium

**❒ *Yanvarın 12-də Şirvan şəhərində Heydər Əliyev Fondunun “Regional İnkişaf” İctimai Birliyi və Talassemiya Mərkəzinin birgə təşkilatçılığı ilə “Talassemiyasız həyat naminə” 3-cü regional simpozium və ödənişsiz tibbi müayinələr təşkil olunub.***



Tədbirdə şəhər icra strukturunun, səhiyyə və təhsil müəssisələrinin işçiləri, ətraf rayonlardan olan talassemiyalı ailələrin üzvləri və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Talassemiya Mərkəzinin direktoru Valeh Hüseynov çıxış edərək Prezident İlham Əliyevin rəhbərliyi ilə səhiyyə sahəsində aparılan islahatların, tibb müəssisələrinin maddi-texniki bazasının təkmilləşdirilməsi, təchizat və kadr hazırlığı ilə bağlı həyata keçirilən tədbirlərin yeni uğurlara yol açdığını bildirib. Talassemiya Mərkəzi və “Regional İnkişaf” İctimai Birliyinin birgə layihələr reallaşdırdığını qeyd edən Valeh Hüseynov respublikanın müxtəlif regionlarında maarifləndirici tədbirlərin, ödənişsiz tibbi müayinələrin təşkil olunduğunu, müayinələrin nəticələrindən asılı olaraq müvafiq müalicələrin təyin edildiyini və bunun gələcəkdə də davam edəcəyini deyib.

Heydər Əliyev Fondunun beynəlxalq əlaqələr departamentinin direktoru Soltan Məmmədov fondun səhiyyə sahəsində həyata keçirdiyi layihələr, o cümlədən “Talassemiyasız həyat naminə” layihəsi çərçivəsində görülən tədbirlər barədə məlumat verib. Bildirib ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə yaradılan və 2009-cu ildən istifadəyə verilən Talassemiya Mərkəzində tibbi xidmətin təkmilləşdirilməsi, maddi-texniki bazanın gücləndirilməsi istiqamətində görülən tədbirlər bu xəstəliyə düçar olanların müalicəsində, eləcə də bu sahədə profilaktik işlərdə əhəmiyyətli rol oynayır, xəstələrə və onların ailələrinə mənəvi baximdan dəstək olur.

Milli Məclisin səhiyyə komitəsinin sədr müavini, Milli Məclisin deputatı Musa Quliyev səhiyyə qanunvericiliyində son dövrlər aparılan islahatlardan danışıb. O, səhiyyə xidmətlərinin beynəlxalq standartlara çatdırılması istiqamətində dövlət siyasətini və bu sahədə qəbul edilmiş dövlət proqramlarını xüsusi vurğulayıb.

Ətraf rayonlarda fəaliyyət göstərən tibb müəssisələrində çalışan səhiyyə işçilərinin iştirak etdiyi simpozium daha sonra elmi sessiyalarda davam edib.

“Talassemiya: müasir yanaşma” mövzusundakı sessiyada talassemiyanın müalicə və diaqnostikası, qarşısının alınması yolları, bu sahədə Mərkəzin təcrübəsi barədə məlumat verilib.

“Talassemiya: diaqnostika və monitorinq” adlı sessiyada isə xəstəliyin laborator və prenatal diaqnozu, infeksion və kardiak ağırlaşmalar, həmçinin psixososial problemlərə dair məruzələr ətrafında müzakirələr aparılıb.

Simpoziumda Talassemiya Mərkəzinin mütəxəssislərinin “Talassemiya və irsi hemoqlobinopatiyalara dair statistik məlumatlar”, “Talassemiya daşıyıcılığı: talassemiyasız həyat naminə nə etməliyik”, “Talassemiya Mərkəzində sümük iliyi transplantasiyasına dair təcrübələr” və digər mövzularda məruzələr dinlənilib.

Eyni zamanda, talassemiyalı xəstələrin müalicə aldığı Şirvan şəhər xəstəxanasına baxış keçirilib, tibb işçiləri ilə təcrübə mübadiləsi aparılıb.

Şirvan Şəhər Mərkəzi Xəstəxanasında talassemiya daşıyıcılığını müəyyən etmək məqsədilə ödənişsiz tibbi müayinələr də təşkil olunub. Müayinələr Şirvan şəhəri və ətraf rayonlardan olan 250-dən çox sakini əhatə edib.

Xatırladaq ki, Talassemiya Mərkəzi və “Regional İnkişaf” İctimai Birliyinin “Talassemiyasız həyat naminə” devizi altında həyata keçirilən layihəsi çərçivəsində bölgələrdə əhalinin maarifləndirilməsi, eləcə də talassemiya daşıyıcılığının müəyyən olunması üçün vətəndaşların ödənişsiz tibbi müayinələri təşkil edilir.

***AZƏRTAC***

# İstintaq Komitəsi jurnalistlərin ölümündə Xodorkovski Mərkəzini günahlandırır

**❒ *Rusiya İstintaq Komitəsi Cənubi Afrika Respublikasında qətlə yetirilmiş rusiyalı jurnalistlər Orxan Camal (məşhur azərbaycanlı filosof, ictimai xadim Heydər Camalın oğlu), Kirill Radçenko və Aleksandr Rastorquyevin qətlə yetirilməsinin istintaqının davam etdiyini bildirmişdir.***



İstintaqın ilkin versiyası olduğu kimi qalır: jurnalistlər dünyanın ən təhlükəli ölkələri sırasında ilk onluğa daxil olan CAR-da mühafizənin və səfərin pis təşkili üzündən yerli yaraqlılar tərəfindən qətlə yetirilmişlər. İstintaq Komitəsinin əməkdaşı bildirmişdir ki, səfərin təşkilatçısı olan “Araşdırmaların idarəçiliyi mərkəzi” (əvvəllər Mixail Xodorkovskinin qapalı media-layihəsi adlanmışdır) təhlükəli səfərin təşkilində özünün səhlənkarlığını ört-basdır etmək üçün kütləvi informasiya vasitələrində səfərə aidiyyatı olmayanları günahlandıraraq reallığı təhrif etməyə çalışır. Jurnalistlərə səfərin müqabilində 20 min dollar vəsait vəd olunmuşdur.



İstintaq Komitəsinin əməkdaşı daha sonra qeyd etmişdir ki, jurnalistlər CAR-a vaxtından iki gün əvvəl gəldiklərindən onları qarşılayan olmamışdır. Buna görə də onlar müşayiət üçün yerli sürücünün xidmətindən istifadə etməyi qərara almışlar. Hərbçilər gecə vaxtı getməməyi və Sibyu şəhərində qalmağı məsləhət görsələr də, rusiyalılar çəkiliş aparacaqları yerə yola düşmüşlər. Şəhərdən 23 kilometr məsafədə yerləşən bir kənddə ərəbcə danışan zənci yaraqlılar maşını saxladaraq jurnalistlərdən fotoaparatları və videokameranı verməyi tələb etmişlər. Jurnalistlər yaraqlıların tələblərini yerinə yetirməkdən imtina etdikdə quldurlar atəş açaraq onları qətlə yetirmişlər. Qarışıqlıqdan istifadə edən sürücü aradan çıxaraq canını qurtarmışdır.

İstintaq Komitəsi cinayət işinin araşdırılmasını davam etdirir.

***“Xalq qəzeti”***


# AZƏRBAYCAN RESPUBLİKASI GƏNCLƏR və İDMAN NAZİRLİYİ
## *tədbirlərin keçirilməsinin satınalınması üçün*
## *AÇIQ TENDER ELAN EDİR*

Tender 6 lot üzrə keçirilir.

Lot-1. Respublikanın rayon və şəhərlərində, ali məktəblərdə insan alverinə qarşı mübarizə üzrə “Günahsız günahkarlar”, sağlam həyat tərzinin təbliği məqsədilə “Həyatla oyun” tamaşalarının nümayişinin satınalınması.

Lot-2. Sosial müdafiəyə ehtiyacı olan gənclər üçün Novruz şənliyinin keçirilməsi tədbirlərinin satınalınması.

Lot-3. Rayon və şəhərlərdə “Sağlam gələcək üçün zərərli vərdişlərə qarşı birləşək!” devizi altında mədəni-kütləvi tədbirin keçirilməsinin satınalınması.

Lot-4. Gənclərin Fiziki aktivlik Festivalının keçirilməsinin satınalınması.

Lot-5. Sosial müdafiəyə ehtiyacı olan yeniyetmə və gənclərin məşğulluq imkanlarının artırılması məqsədilə tədbirlərin keçirilməsinin satınalınması.

Lot-6. “Mənim ixtisasım” mövzusunda informativ videoçarxların hazırlanmasının satınalınması.

Tender iştirakçılarına təklif olunur ki, “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir:

– aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, analoji işlərdə təcrübəsi və maliyyə vəziyyəti.

Prosedurla əlaqədar əlavə məlumat almaq üçün maraqlananlar 4652155 nömrəli telefona (faks:4656438) müraciət edə bilərlər (əlaqələndirici şəxs - Qurbanzadə Fərid Vidadi oğlu). İddiaçılar hər lot üçün 100 (yüz) manat məbləğdə iştirak haqqını aşağıda göstərilən hesaba ödədikdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyindən (Bakı şəhəri, Olimpiya küçəsi 4, II mərtəbə, Sağlam həyat tərzinin təbliği və sosial proqramlar sektoru) ala bilərlər.

Bank – Dövlət Xəzinədarlığı Agentliyi
Kod – 210005
M/h – AZ41NABZ 01360100000000003944
VÖEN – 1401555071
SWIFT – CTREAZ22
Alan müştəri – Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi
H/h – AZ50CTRE00000000000002147771
VÖEN – 1500171121
Büdcə səviyyəsinin kodu – 7
Təsnifat kodu – 142340

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar prosedurda iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- iştirak etmək üçün yazılı müraciət;
- iştirak haqqının ödənilməsi barədə bank sənədi;
- iddiaçının tam adı, hüquqi statusu, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;
- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması barədə arayış;
- iddiaçının son bir il ərzində (əgər daha az müddət fəaliyyət göstərirsə bütün fəaliyyəti dövründə) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış;
- təklif (zərflərin açıldığı gündən sonra azı 30 bank günü müddətində qüvvədə olmalıdır);
- təklifin təminatı (zərflərin açıldığı gündən sonra azı 60 bank günü müddətində qüvvədə olmalıdır);
- son bir il ərzində (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründə) yerinə yetirdiyi analoji işlər haqqında məlumat

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır.

İddiaçılar tender prosedurunda iştirak etmək üçün yuxarıda göstərilən ixtisas sənədlərini 14 fevral 2019-cu il saat 18.00-a qədər tender komissiyasına təqdim etməlidirlər. İddiaçılar tender təkliflərini və təklifin 1 faizi məbləğində bank təminatını 22 fevral 2019-cu il saat 18.00-a qədər ikiqat bağlı zərflərdə iki nüsxədə tender komissiyasına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Təklif zərfləri iddiaçıların iştirakı ilə 25 fevral 2019-cu il saat 10.00-da Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyində açılacaqdır.

***Tender komissiyası***


# “The Washington Post” azərbaycanlı sirk ustasının uğurlarından yazıb

**❒ Məşhur azərbaycanlı sirk ustası, “The Washington Post” qəzetində haqqında məqalə dərc edilən Üzeyir Novruzov “Amerika istedadlar axtarır: Çempionlar” istedadlar şousunda uğurla çıxış edib. Bu barədə “Sputnik. Azərbaycan” saytı məlumat yayıb.**



Ü.Novruzov deyib ki, layihədə istedadını layiqli şəkildə nümayiş etdirdiyi üçün özünü xoşbəxt sayır. Sirk ustası 2015-ci ildə də bu şouda iştirak etmişdi. Lakin müvazinətini itirdiyi üçün hündürlükdən yıxılaraq ağır zədə almış və qalib ola bilməmişdi. Bundan sonra bir müddət müalicə alıb. Sonra yarımçıq qalmış çıxışını davam etdirmək qərarına gəlib.

O, yenidən proqrama qatılaraq ən çətin trüklərdən birini göstərib. Münsiflər heyəti və zalda olan tamaşaçılar bu mənzərəni həyəcanla izləyiblər. Sirk ustası həmin fəndi çox peşəkarcasına həyata keçirib. Uğurlu çıxışı tamaşaçılar ayaq üstə alqışlayıblar.

“Nərdivandan yıxılmağım məni şok vəziyyətə salmışdı. Bu, mənim üçün gözlənilməz idi. Amma artıq növbəti gün bildim ki, finala keçmişəm və amerikalılar mənim finala çıxmağımı arzulayırdılar. Həmin an düşüncələrimdə çox şey dəyişdi. Başa düşdüm ki, bu qədər insanın etdiklərimin fərqində olması möhtəşəmdir. Ona görə bu layihəyə yenidən döndüm ki, insanın istənilən çətinliyə baxmayaraq, sevdiyi işlə məşğul olanda uğur qazandığını və ondan zövq aldığını hər kəsə sübut edim”, – deyə Novruzov bildirib.

Sirk ustası onu da qeyd edib ki, nərdivandan yıxılandan sonra zərrə qədər də qorxmayıb. Çünki irəlidə onu böyük qələbənin gözlədiyini bilib. O, bu layihədə iştiraka növbəti dəfə dəvət olunmasına həddsiz sevinib. Layihənin növbəti buraxılışı Amerikada dekabrın 7-də yayımlanıb. Ü.Novruzov öz istedadını münsiflər heyətinin və tamaşaçıların qarşısında uğurla nümayiş etdirib. “The Washington Post” qəzeti Ü. Novruzova məqalə həsr edib və onu “Qorxmaz azərbaycanlı” adlandırıb.

Üzeyir Novruzov Gəncədə anadan olub, lakin Rusiyada böyüyüb. Sonra yaşamaq üçün ABŞ-a köçüb. O, səhnəyə əfsanəvi Çarli Çaplinin obrazında çıxır və onları tez-tez müqayisə edirlər. Bu məşhur sirk ustası Çində altı metrlik nərdivana dırmaşmaq və onun üzərində 8 dəqiqə dayanmaq üzrə dünya rekordunu vurub. Həmin nömrəyə görə, onun adı “Ginnesin rekordlar kitabı”na düşüb. Hazırda sirk ustası ailəsi ilə birlikdə ABŞ-da yaşayır. O, müxtəlif tamaşalarda çıxış edir və dəvət olunduğu istedad şoularına qatılır.

***M.MÜKƏRRƏMOĞLU,***
***“Xalq qəzeti”***

# Xarici xəbərlər

## Çin

### Ticarət dövriyyəsində rekord



Çin və Rusiya arasında mövcud ticarət dövriyyəsi ötən il 100 milyard dolları ötüb. Bu, 2 ölkənin iqtisadi münasibətlərində rekord göstəricidir. Bu bəyanatla Çin Kommersiya Nazirliyinin rəsmisi Qao Fen çıxış edib. O deyib ki, ötən il Çin və Rusiya iqtisadi əlaqələrində məhsuldar dövr olub.

**Məlumatı "Sinxua" yayıb.**

### Ötən ilin lideri




"Gartner" analitik şirkəti 2018-ci ildə dünya üzrə ən çox fərdi kompüter satışını həyata keçirən şirkətlərin adlarını açıqlayıb. Bildirilir ki, həmin dövrdə fərdi kompüterlərin tədarük həcmi dünya üzrə 259,4 milyon ədəd olub ki, bu da 2017-ci ilin göstəricisindən 1,3 faiz çoxdur.

Qeyd edilir ki, ötən il bu sahədəki lider il ərzində dünya üzrə satış payı 20,8 faizdən 22,5 faizədək artan "Lenovo" şirkəti olub. İkinci pillədə payı 21 faizdən 21,7 faizədək yüksələn "HP" qərarlaşıb. İlk üçlüyü "Dell" şirkəti tamamlayıb.

**Xəbəri "İxbt.com" verib.**

## Yaponiya

### Turistlərin sayı artıb



Ötən il Yaponiyaya gələn əcnəbi turistlərin sayı ilk dəfə olaraq 30 milyonu ötüb. Bu barədə ölkənin turizm naziri Keişi İşii məlumat verib. Nazir bildirib ki, 2018-ci ildə ölkəyə 31,19 milyon turist gəlib. Bu, 2017-ci ilin göstəricisindən 8,7 faiz çoxdur.

**Xəbəri "Business İnsider" verib.**

## Cənubi Koreya

### Təqdimat tarixi açıqlanıb




"Samsung" şirkəti növbəti nəsil "Galaxy S10" smartfonlarının təqdimat tarixini açıqlayıb. Bildirilir ki, şirkətin yeni məhsulları rəsmən fevralın 20-də "Unpacked" sərgisində təqdim olunacaq. Məlumata görə, "Galaxy S10" smartfonunun satışına martın 8-dən başlanacağı bildirilir.

**Məlumatı "Ferra.ru" yayıb.**

## İspaniya

### "Barselona" heyətini gücləndirir




La Liqanın lideri "Barselona" heyətini gücləndirir. Bildirilir ki, Kataloniya klubu qış transfer dövründə "Ayaks"ın futbolçusu Frenki de Yonqun transferi üçün Hollandiya təmsilçisi ilə razılığa gəlib. Razılığa əsasən, "Barselona" "Ayaks"a 75 milyon avro ödəyəcək. 21 yaşlı yarımmüdafiəçi ilə 5 illik müqavilə imzalanacaq.

Qeyd edək ki, De Yonqla PSJ, "Bavariya" və "Mançester Siti" də maraqlanırdı.

**Xəbəri "Futbolhd.ru" verib.**

***Hazırladı:***
***Elçin ABBASOV,***
***"Xalq qəzeti"***

# Dünya Bankının prezidenti kim olacaq?




***❐ ABŞ Prezidenti Donald Trampın qızı İvanka və ölkənin BMT-dəki sabiq daimi nümayəndəsi Nikki Heyli Dünya Bankının prezidenti vəzifəsinə real namizədlər hesab olunurlar. Bununla bağlı məlumatı "Financial Times"ə istinadən RİA "Novosti" yayıb.***

Ancaq qəzet məlumatın mənbəyini açıqlamayıb. Sadəcə bildirilir ki, bankın hazırkı prezidenti Cim Yen Kim bu il fevralın 1-dən istefaya gedir və onun səlahiyyətlərini icraçı direktor Kristalina Georgiyeva həyata keçirəcək.

Hazırda bank prezident postuna namizədlərlə bağlı müzakirəni fevralın ortalarına, namizədin təyinatını isə aprelin ortalarına qədər yekunlaşdırmağa çalışır.

"Financial Times"ın verdiyi məlumata görə, bankın prezidenti vəzifəsinə namizədlər arasında Nikki Heyli və İvanka Trampdan əlavə, ABŞ-ın maliyyə nazirinin beynəlxalq məsələlər üzrə müavini Devis Mellasın və ölkənin Beynəlxalq İnkişaf Agentliyinin başçısı Mark Qrinin də adları çəkilir. ABŞ Maliyyə Nazirliyinin nümayəndəsi bəyan edib ki, təmsil etdiyi qurum artıq ən yaxşı namizədlərin seçimi ilə bağlı daxili prosesə başlayıb.

RİA "Novosti"nin Dünya Bankındakı mənbəyi isə "Financial Times"ın məlumatı ilə bağlı suala cavab verərək bildirib ki, sözügedən namizədlər haqqında heç nə bilmir. Onun sözlərinə görə, bankın əməkdaşları arasında prezident postuna İvanka Trampın həyat yoldaşı Cared Kuşnerin namizədliyi müzakirə olunur.

Qeyd edək ki, Cim Yen Kimin səlahiyyət müddəti 2022-ci ildə başa çatır. O, 6 ildir ki, Dünya Bankının prezidenti postunda işləyir. Vəzifədən getməsinin səbəbini isə iqtisadiyyatın özəl sektoruna qayıtmaq arzusu ilə izah edib.

Adətən, Dünya Bankının prezidenti postuna təşkilatın ən böyük aksioneri olan ABŞ-ın vətəndaşı seçilir. Prezidentin səlahiyyət müddəti isə 5 ildir və yenidən seçilə bilir.

***Paşa ƏMİRCANOV,***
***"Xalq qəzeti"***

# "Sarı jiletlilər" hərəkatının növbəti aksiyası

***❐ "Le Monde" nəşrinin yaydığı məlumata görə, Fransada "sarı jiletlilər" hərəkatının tərəfdarları növbəti dəfə küçələrə axışmağa başlayıblar. Bildirilir ki, aksiyaçılar əsasən ölkənin Burj şəhərində, eləcə də digər şəhərlərdə toplaşıblar. Burj şəhər polisi nümayişi qadağan etsə də, dünən səhər saatlarından artıq əvvəlki həftələrdən də çox aksiyaçının toplaşdığı bildirilir.***



Parisdə etiraz aksiyaçıları Maliyyə və İqtisadiyyat Nazirliyinin yerləşdiyi Bersi məhəlləsində yığışıblar. Aksiyaçıların şəhərin küçələrindən keçərək mərkəzi Yelisey prospektinə gəlməsi planlaşdırılıb.

İctimai asayişin qorunması məqsədilə ölkə üzrə 80 min polis və jandarm səfərbər olunub ki, onlardan 5 mini Parisdədir.

Hökumətin aksiya zamanı qəti və sərt tədbirlər görməklə bağlı məlumatları "sarı jiletlilər"in küçələrə çıxmasının qarşısını ala bilməyib.

Bildirilir ki, hökumət ölkəni bürümüş etiraz aksiyası ilə bağlı milli debatların gələn çərşənbə günü başlayacağını bildirsə də, onun gözlənilən nəticələr verəcəyinə inam yoxdur. Eləcə də, aidiyyəti rəsmi şəxslərə milli müzakirələri aparmaq təklif olunsa da, onlar bundan imtina ediblər.

***Mahmud QƏRİBOV,***
***"Xalq qəzeti"***

# Çində naməlum virus aşkarlanıb



***❐ Çin və Sinqapur alimləri "Nature Microbiology" jurnalında Cənubi Çində yarasalarda aşkarlanan bu vaxtadək elmə məlum olmayan filoviruslar növünün tədqiqinin nəticələrini dərc ediblər.***

Alimlər bildiriblər ki, yeni tədqiq edilən virus qızdırma əmələ gətirən ölümcül yoluxucu xəstəliklər Ebola və Marburq viruslarına çox bənzəyir. İnsanlar üçün hələ təhlükəli olmasa da, alimlər növlərarası ötürməni istisna etmirlər.

Filoviruslar ailəsi Cuevavirus, Ebolavirus və Marburgvirus kimi üç növdən ibarətdir. Bu növlər Dünya Səhiyyə Təşkilatının təsnifatına görə, dördüncü risk qrupuna – insanlar üçün ölümcül təhlükəli patogenlərə aid edilir.

Yarasaların, əsasən meyvə ilə qidalananları təhlükəli virusların əsas daşıyıcıları olsalar da, özləri bu virusa yoluxmurlar. İnsanların təması və yoluxması, bir qayda olaraq, yarasaların məskunlaşdıqları mağaralara və şaxtalara girdikdə baş verir.

Yeni virus Çinin cənubunda Yunnan əyalətinin Menqla dairəsində aşkarlanıb. Virusun adı da buradan götürülüb. Tədqiqatın gedişində məlum olub ki, o, genetik cəhətdən artıq tanınmış filoviruslara təxminən 30-50 faiz uyğunlaşır.

***Rövşən ATAKİŞİYEV,***
***"Xalq qəzeti"***

# Hava proqnozu

**➲ Yanvarın 13-də**

**➲ Bakıda və Abşeron yarımadasında** dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gecəyə doğru yağış yağacağı ehtimalı var. Səhər və axşam bəzi yerlərdə duman olacaq. Mülayim şimal-qərb küləyi əsəcək, gündüz mülayim cənub-qərb küləyi ilə əvəz olunacaq. Gecə 0-2, gündüz 8-11, Bakıda gecə 0-2, gündüz 8-10 dərəcə isti olacaq. Atmosfer təzyiqi 760 mm civə sütunundan 755 mm civə sütununa enəcək, nisbi rütubət gecə 70-75, gündüz 50-55 faiz olacaq.

**➲ Naxçıvan Muxtar Respublikasında** əsasən yağmursuz keçəcək. Lakin axşam bəzi yerlərdə yağıntılı olacağı, qar yağacağı gözlənilir. Səhər zəif duman olacağ. Qərb küləyi əsəcək. Gecə 5-10, dağlıq ərazilərdə 12-15 dərəcə şaxta, gündüz 4-9 dərəcə isti olacaq.

**➲ Yuxarı Qarabağ: Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Qubadlı, Zəngilan, Laçın, Kəlbəcər, həmçinin Daşkəsən-Gədəbəy rayonlarında** əsasən yağmursuz keçəcək. Lakin axşam bəzi yerlərdə yağıntılı olacağı, qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, gecə və səhər ayrı-ayrı yerlərdə arabir güclənəcək. Gecə 0-5 dərəcə şaxta, gündüz 4-8 dərəcə isti olacaq.

**➲ Qazax, Gəncə, Goranboy, Tərtər, Ağdam, Füzuli, Cəbrayıl rayonlarında** əsasən yağmursuz keçəcək. Lakin axşam bəzi yerlərdə yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, gecə və səhər ayrı-ayrı yerlərdə arabir güclənəcək. Gecə 3 dərəcə şaxtadan 2 dərəcəyədək isti, gündüz 8-13 dərəcə isti olacaq.

**➲ Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında** əsasən yağmursuz keçəcək. Lakin axşam bəzi yerlərdə yağıntılı olacağı, dağlıq ərazilərdə qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, arabir güclənəcək. Gecə 3 dərəcə şaxtadan 2 dərəcəyədək isti, gündüz 7-12 dərəcə isti, dağlarda gecə 5-10 dərəcə şaxta, gündüz 3 dərəcə şaxtadan 2 dərəcəyədək isti olacaq.

**➲ Mərkəzi Aran: Mingəçevir, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Şirvan, Hacıqabul, Salyan, Neftçala rayonlarında** əsasən yağmursuz keçəcək. Lakin axşam bəzi yerlərdə yağış yağacağı gözlənilir. Səhər ayrı-ayrı yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, gecə və səhər ayrı-ayrı yerlərdə arabir güclənəcək. Gecə 3 dərəcə şaxtadan 2 dərəcəyədək isti, gündüz 8-13 dərəcə isti olacaq.

**➲ Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara rayonlarında** əsasən yağmursuz keçəcək. Lakin axşam bəzi yerlərdə yağış yağacağı gözlənilir. Dağlarda duman olacaq.Şimal- şərq küləyi əsəcək. Gecə 0-3, gündüz 9-12, dağlarda gecə 0-3, gündüz 5-9 dərəcə isti olacaq.



# Ölkənin adının dəyişdirilməsinə qarşı etirazlar artır

***❐ Vahid Makedoniya Partiyasının lideri Yanko Baçev Makedoniyanın adının dəyişdirilməsi ilə bağlı qanuna qarşı BMT-də mübarizə aparacaqlarını açıqlayıb. Bu barədə TASS məlumat yayıb.***

Müxalifət lideri jurnalistlərə verdiyi açıqlamada deyib: "Bizim partiyamızın da üzvü olduğu "Makedoniya blokları" hərəkatı BMT-də beynəlxalq səviyyədə öz mübarizəsini davam etdirəcək".

Onun sözlərinə görə, belə bir qərarın qəbul edilməsilə hakimiyyət makedon xalqının iradəsinin əksinə hərəkət edib.

Qeyd edək ki, Makedoniya parlamenti böyük səs çoxluğu ilə ölkənin adının Şimali Makedoniya Respublikası olaraq dəyişdirilməsini təsdiqləyib.

***Rövşən ATAKİŞİYEV,***
***"Xalq qəzeti"***

# Volqoqradda aeroport ikinci dəfə bağlanıb



***❐ Volqoqrad Beynəlxalq Aeroportu əlverişsiz hava şəraitinə görə ikinci dəfə bağlanıb.***

TASS-ın məlumatına görə, xeyli aviareys təxirə salınıb. Təyyarələrin uçuş zolaqlarında buz örtüyü əmələ gəlib.

Təhlükəsizlik tədbirlərini nəzərə alaraq aeroport rəhbərliyi uçuşları dayandırıb.

***Qəzənfər QASIMOV,***
***"Xalq qəzeti"***

# Ukrayna Türkiyədən pilotsuz uçuş aparatları alacaq



***❐ Ukrayna Prezidenti Petro Poroşenko Türkiyədən pilotsuz uçuş aparatları (PUA) alınacağını bildirib. Bu barədə Prezident öz "Facebook" səhifəsində məlumat verib.***

Petro Poroşenkonun sözlərinə görə, Türkiyənin "Baykar" şirkəti tərəfindən istehsal olunacaq 6 ədəd "Bayraktar TB2" tipli dron qarşıdakı bir il ərzində sifarişçiyə çatdırılacaq.

"Bayraktar TB2" tipli dronlar müasir standartlara uyğun hazırlanıb. Yeni qurğu müşahidə və kəşfiyyat, həm də döyüş məqsədilə istifadə üçün nəzərdə tutulub.

***Mahmud QƏRİBOV,***
***"Xalq qəzeti"***

BAŞ REDAKTOR
HƏSƏN HƏSƏNOV

TELEFONLAR:
Məsul katib: 493-61-02
Şöbələr: 493-59-03 (8 xətli), 493-69-47, 493-34-13, 493-34-23, 493-59-47, 493-45-18, 493-33-01, 598-84-13.
Reklam və elanlar: 493-82-21, Faks: (99 412) 493-02-80, 598-28-64;
E-mail: info@xalqqazeti.com, xalqqazeti@gmail.com



"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 6816
SİFARİŞ 76
QİYMƏTİ 40 qəpik

Çapa imzalanmışdır 00:00